www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17-18 fevral 2018-ci il Şənbə № 38 (6927) Qiyməti 60 qəpik

**Xəbər**

**Bakıda tükürpədən cinayət - zibillikdən doğranmış qadın meyiti tapıldı**

yazısı səh.14-də

**Gündəm**

**Ermənistan ABŞ-ın sanksiya qərarları ilə üz-üzə - səbəb**



Ağ Ev Rusiyanın forpostuna dərs verməkdə qərarlıdır

yazısı səh.9-da

**Vergilər Nazirliyində həbslər davamlı ola bilər**

yazısı səh.5-də

**Anti-amerika ovqatlı inqilab bayramı - Tehrandan reportaj**

yazısı səh.6-da

**Güzəştli kredit daha çox hansı sahibkarlara verilir...**

yazısı səh.13-də

**Avropada da məktəblərdə Azərbaycanda olduğu kimi "pis işlər" baş verir...**

yazısı səh.15-də

**"İmtahan Mərkəzinin addımları qəbul prosesini xeyli rassionallaşdırır" - Etibar Əliyev**

yazısı səh.12-də

**Rusiya və ABŞ-ın yeni rəqabət meydanı - Qarabağ...**

yazısı səh.11-də

**İnternat direktorunun evindən 84 minlik oğurluq edənə 9 il cəza**

yazısı səh.15-də

**Qazımız neft itkilərimizi kompensasiya edə biləcəkmi...**

yazısı səh.14-də

**DMX və DTX birgə əməliyyat keçirdi - 26 əcnəbi saxlanıldı**

yazısı səh.14-də

**Rusiyanın Mərkəzi Bankı qarət edildi**

yazısı səh.2-də

## Azərbaycan qeyri-dost çevrələrin planını necə pozdu

# BAKIDAN İKİ FEVRAL "ŞOKU" - İRƏVAN VƏ KREML TƏLAŞ ORTAQLARI KİMİ...

11 aprel növbədənkənar seçki qərarı və İlham Əliyevin İrəvan açıqlamasını düşmən hələ də müzakirə edir; açıqlamaya Rusiya XİN-dən də əndişəli reaksiya gəldi, **Bakıdan isə cavab gecikmədi:** "Azərbaycan xalqının öz tarixi torpaqlarına qayıtması nəyə görə kimisə narahat etməlidir?.."



yazısı səh.8-də

## Seçki prosesi aktiv mərhələyə keçdi - namizədlər üçün imza yığılır

YAP-dan "qanun yol verdiyi halda 1 milyon imza toplaya bilərik" açıqlaması; digər təşkilatlar kampaniyanı necə quracaq?

yazısı səh.3-də



*Anar:*

**"Namizədlərin siyahısına baxmışam, hansı İlham Əliyevin alternativi ola bilər ki..."**

yazısı səh.4-də



Mürvət Həsənli

**Tanınmış iş adamından hadisə kimi açıqlamalar**

yazısı səh.7-də



*Azay Quliyev:*

**"Seçkinin müşahidəsini Azərbaycanın ATƏT-dəki öhdəliklərinə sadiqliyinin nümayişi üçün gözəl imkan hesab edirik"**

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 37 (6926) 16 fevral 2018



## İlham Əliyev Donald Trampa məktub göndərdi

**Azərbaycan prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının prezidenti Donald Trampa başsağlığı verib. Başsağlığında deyilir: "Hörmətli cənab Prezident, Florida ştatının Parklend şəhərində məktəbdə törədilmiş silahlı hücum nəticəsində insan tələfatı və yaralananlar barədə xəbərdən olduqca kədərləndim.**

Bu dəhşətli hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm".

## Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini təyin edilib


Rüfət Rüstəmzadə

**Prezident İlham Əliyev 14 fevral sərəncamı ilə Rüfət Bünyat oğlu Rüstəmzadəni Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini vəzifəsinə təyin edib. Agentlikdən verilən məlumata görə, Rüfət Rüstəmzadə 1975-ci ildə Bakı şəhərində anadan olub. Ali təhsilini Azərbaycan Dövlət İqtisad Universitetində alıb. Əmək fəaliyyətinə 1996-cı ildə başlayıb. 1996-2002-ci illərdə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dünya Bankının İnstitusional Quruculuğa Birinci Texniki Yardım Layihəsinin işçi qrupunda müxtəlif vəzifələrdə çalışıb. 2002-2007-ci illərdə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dünya Bankının İnstitusional Quruculuğa İkinci Texniki Yardım Layihəsinin işçi qrupunun direktoru olub.**

2007-2010-cu illərdə "Caspian Biznes Consaltinq" MMC-nin idarəedici tərəfdaşı, 2010-2013-cü illərdə isə Liviya - Azərbaycan QSC-nin İdarə Heyətinin sədri kimi əmək fəaliyyətini davam etdirib. 2014-cü ildə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdir müavini və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Strateji planlaşdırma və beynəlxalq layihələr şöbəsinin müdiri vəzifələrində çalışıb. Rüfət Rüstəmzadə daha sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin rəisi vəzifəsində işləyib.

## Poroşenko Putinlə telefonla 2 saat nə danışıb?

**Ukrayna prezidenti Pyotr Poroşenko Rusiya prezidenti Vladimir Putinlə fevralın 12-də baş tutan telefon danışığı barədə danışıb. Modern.az Rusiya KİV-nə istinadən xəbər verir ki, Poroşenko telefon danışığının birinci hissəsinin Donetsk və Luqansk ərazilərinə sülhməramlıların yerləşdirilməsinə sərf edildiyini bildirib.**

"Sülhməramlılar bizə çox lazımdır. Onlar işğal altındakı ərazilərdə fəaliyyət göstərməli və qanunsuz silahlı birləşmə üzvlərini tərk-silah etməlidir".

Danışıqların ikinci hissəsinə gəlincə, Poroşenko Putinlə əsirlərin dəyişdirilməsini müzakirə etdiyini bildirib.

Poroşenko Putinlə 2 saatlıq danışıqlarında razılığa gəlib-gəlməmələri ilə bağlı konkret açıqlama verməyib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01**

# General Çovdarovun səhhət müəmması- vəkil rəsmiləri təkzib edir

**"Ədliyyə Nazirliyi Tibb Baş İdarəsi rəsmisinin dedikləri həqiqəti əks etdirmir".**



"Report" xəbər verir ki, bunu Akif Çovdarovun vəkili Kamandar Nəsibov Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinin açıqlamasına münasibət bildirərkən deyib.

Vəkil bildirib ki, əgər həqiqətən Akif Çovdarovun səhhəti yaxşı olsaydı, tibb baş idarəsi və İstintaq təcridxanası Kardiologiya İnstitutunun həkimləri tərəfindən 2017-ci ilin noyabr ayında keçirilmiş Holter müayinəsini gizlətməzdilər.

"05 dekabr 2017-ci il və 06 fevral 2018-ci il tarixlərində Bakı İstintaq Təcridxanasına rəsmi müraciət edərək aparılan müayinə və müalicələrə dair sənədlərin surətlərini istəmişəm. Lakin bu günə kimi verməyiblər. Əgər həqiqətən vəziyyəti yaxşıdırsa, onda təqdim etsinlər müayinən nəticələrini, ailəsi də nigaranlıqdan qurtulsun", - deyə vəkil bildirib.

**Vəkil onu da bildirdi ki, ötən ilin 6 dekabr tarixində Tibb baş idarəsinə müraciət edərək cəzasının çəkməsinə mane olan ağır xəstəliyə düçar olması barədə tibbi şəhadətləndirilməsinin keçirilməsini xahiş edib:** "Lakin həmin müraciətə bu günə kimi cavab verilməyib. Hətta əlavə olaraq 2018-ci ilin yanvar ayında ədliyyə naziri cənab Fikrət Məmmədova müraciət edərək tibb baş idarəsinə həmin müraciəti cavablandırması üçün göstəriş verməsini də xahiş ediblər. Lakin buna baxmayaraq, yenə də müraciətlərinə cavab verilməyib".

**Vəkil həmçinin tibb baş idarəsinin rəsmisinin açıqlamasında Akif Çovdarovun təyin edilən müalicələri təyinatı üzrə qəbul etdikdə vəziyyətinin stabil olması barədə bildirdiyi fikrə də münasibət bildirib.**

"Ümumiyyətlə, tibb baş idarəsi həm yazdıqları cavab məktublarında, həm də müsahibələrində daima Akif Çovdarovun həkim tərəfindən təyin edilmiş müalicə sxemini tam həcmdə icra etmədiyini, arabir müalicəni dayandırdığını, müalicəni təyinatı üzrə qəbul etdikdə vəziyyətinin stabil olduğunu göstərirlər. Lakin bu, qətiyyən belə deyil. Sadə bir misal deyim: Əgər Akif Çovdarov öz səhhətinə, nəticədə öz həyatına qarşı laqeyd olsaydı, Holter müayinəsindən keçirilməsindən ötrü 1 il 9 ay tibb baş idarəsi ilə mübarizə aparmazdı. Müdafiə etdiyim şəxslə bu barədə dəfələrlə söhbətlərimiz olub. Akif Çovdarov hər dəfə tam səmimi şəkildə bildirib ki, o, həkimlərin təyin etdikləri bütün müalicələri təyinatı üzrə tam icra edir, baxmayaraq ki, hətta bəzən həkimlərin yazdıqları müalicə kursları bir-biri ilə ziddiyyət təşkil edir. Həkimlər tərəfindən təyin edilmiş bütün dərmanlar ailə üzvləri tərəfindən dərhal alınıb göndərilir. Hesab edirəm ki, həmin ifadələr tamamən əsassızdır və Akif Çovdarovun əziyyət çəkdiyi xəstəliklərdən ölə bilməsi ehtimalına hesablanaraq ola biləcək bədbəxt hadisənin məhz Akif Çovdarovun özünün təqsiri ucbatından baş verdiyi görüntüsünü yaratmaq məqsədilə qəsdən ictimailəşdirilir", - deyə vəkil bildirib.



## Leyla Seyidbəyova doğum evinə baş həkim gətirildi

**Mərkəzi Neftçilər Xəstəxanasının baş direktoru Leyla Seyidbəyova tutduğu vəzifədən azad edilib.**

Bu barədə modern.az-a Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova məlumat verib.

Nazirlik rəsmisi qeyd edib ki, Leyla Seyidbəyova öz ərizəsilə vəzifədən azad olunub:

"Səhiyyə Nazirliyi Bakı Baş Səhiyyə İdarəsinin əmrinə əsasən, Leyla Seyidbəyova 7 saylı Doğum Evinə baş həkim təyin edilib".

## Azərbaycan millisi dünya reytinqində gerilədi

**FİFA dünya yığmalarının yeni reytinq siyahısını açıqlayıb. Azərbaycan milli komandası ötən ayla müqayisədə bir pillə geriləyib. Yanvarın 27-də Türkiyədə Moldova yığması yoldaşlıq oyununda qolsuz heç-heçə edən Qurban Qurbanovun rəhbərlik etdiyi kollektiv hazırda 275 xalla 119-cu sıradadır.**



## 94 nəfərin ölkəyə girişinə məhdudiyyət qoyulub

**Yanvar ayı ərzində Dövlət Miqrasiya Xidməti tərəfindən Azərbaycanda miqrasiya sahəsində, o cümlədən inzibati qanunvericiliyin tələblərinin pozulması ilə bağlı 1635 qərar qəbul edilib.**

Dövlət Miqrasiya Xidmətindən verilən məlumata görə, 2018-ci ilin yanvar ayı ərzində Bakı şəhərində, həmçinin respublikanın digər şəhər və rayonlarında keçirilən tədbirlər və aparılan araşdırmalar nəticəsində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının miqrasiya sahəsində, o cümlədən inzibati qanunvericiliyin tələblərinin pozulması ilə bağlı 1635 qərar qəbul edilib. Ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılmamaqla inzibati cərimə tətbiq olunma ilə bağlı 1052 qərar qəbul edilib ki, onlardan 865-i ölkəni tərk etmələri barədə, 187-si ölkə ərazisində yaşamalarını qanuniləşdirmə ilə bağlı olub. Ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla inzibati cərimə tətbiq olunma ilə bağlı 433, Miqrasiya Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozmasına görə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ölkəyə girişinə məhdudiyyət qoyulma ilə bağlı 94, müvəqqəti və daimi yaşamaq üçün sənədin yeni sənədlə əvəz olunması ilə bağlı 25, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə yaşayış sahəsi vermiş Azərbaycan Respublikası vətəndaşları və ya Azərbaycan Respublikasında yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada onların vaxtında olduğu yer üzrə qeydiyyata alınması və qeydiyyatdan çıxarılması üçün tədbirlərin görülməməsi ilə bağlı 31 qərar qəbul edilib.

2018-ci ilin yanvar ayı ərzində olduğu yer üzrə qeydiyyatla bağlı 55962 nəfər əcnəbi və vətəndaşlığı olmayan şəxsin Dövlət Miqrasiya Xidmətinə müraciəti qeydə alınıb.

Ay ərzində DMX-nin "Çağrı mərkəzi"nə 8625 zəng daxil olub.

## Azərbaycan üçün Həcc kvotası 600-dən 2000 nəfərə qaldırıldı

**Bu il Azərbaycandan Həcc ziyarəti ilə bağlı Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ilə Səudiyyə Ərəbistanı Krallığının Həcc Nazirliyi arasında müqavilə yenilənib.**

Müqavilədə bu il Azərbaycandan Həcc ziyarəti üçün nəzərdə tutulan zəvvar kvotası 600-dən 2000-ə qaldırılıb.

Qeyd edək ki, Azərbaycandan Həcc ziyarətinə sənəd qəbulu bu həftənin əvvəlində başlayıb.

Artıq 100-dən çox zəvvar səfər üçün QMİ-də qeydiyyatdan keçib.

Ziyarətin qiyməti 4150 ABŞ dollarıdır.

Ziyarəti Azərbaycandan yalnız QMİ təşkil edir.

## TANAP qaz boru kəməri bu ilin iyul ayında istifadəyə veriləcək

**Trans-Anadolu (TANAP) qaz boru kəməri bu ilin iyul ayında istifadəyə veriləcək.**

"Anadolu" xəbər verir ki, bunu Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak bu gün (15 fevral-red.) Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü iclasında bildirib.

Onun sözlərinə görə, ötən ay artıq Trans-Anadolu (TANAP) qaz boru kəmərinin ilk sınaq işlərinə başlanılıb və iyul ayından boru kəmərinin istifadəyə verilməsi mümkün olacaq.

**Nazir bildirib ki, TANAP Türkiyənin enerji təchizatı təminatı və Milli enerji və mədən Strategiyası baxımından da önəmli layihədir:** "Son iki ildə təchizat təminatı məsələsində önəmli addımlar atılıb".

B.Albayrak qeyd edib ki, Türkiyə Şərqi Aralıq dənizindəki təbii ehtiyatların Avropa və dünya bazarlarına daşınması üçün də ən məqbul və ən rasional alternativdir.

## 3875 nəfər itkin düşmüş şəxs kimi qeydiyyatdadır

**Hazırda əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında 3875 nəfər itkin düşmüş şəxs kimi qeydiyyatdadır. Bunu jurnalistlərə açıqlamasında Dövlət Komissiyasının katibi, İşçi Qrupunun rəhbəri İsmayıl Axundov deyib.**

İ.Axundovun sözlərinə görə, onlardan 3165 nəfəri hərbçi, 710 nəfəri isə mülki şəxslərdir. Dövlət Komissiyası bu işdə beynəlxalq təşkilatlarla, o cümlədən Beynəlxalq Qızıl Xaç Komitəsi ilə əməkdaşlıq edir. İki qurumun əsir və itkin düşmüş şəxslərin siyahısındakı fərq 75-ə endirilib. Halbuki bu rəqəm 2015-ci ildə 350 nəfərdən yuxarı idi.

**İşçi Qrupunun rəhbəri qeyd edib ki, bu günə kimi 1550 nəfər itkin düşmüş şəxslərin 4119-nun ailə üzvündən bioloji nümunələr götürülüb:** "Hazırda bu istiqamətdə işlər davam etdirilir. Xatırladım ki, Azərbaycanda itkin düşmüş şəxslərə aid olduğu ehtimal edilən 195 naməlum məzar yeri aşkarlanıb. Onlardan 185-nin GPS koordinatları çıxarılıb".

YENİ MÜSAVAT
N 37 (6926) 16 fevral 2018

**Xəbər verdiyimiz kimi, Daşkəsən Rayon İcra Hakimiyyəti ilə 2016-cı ilin aprelində Qarabağ döyüşlərində yaralanaraq bir qolunu itirmiş müharibə iştirakçısı Arzu Məmmədov arasında mübahisə yaranıb. Bu haqda ölkə KİV-lərində indiyədək xeyli material dərc olunub. "Yeni Müsavat"da da ötən saylarda bu mövzuda yazılıb.**



# "Qohumumla aramdakı pul məsələsinin icra hakimiyyətinə aidiyyəti yoxdu"

## **İlhamə Bayramova:** "Arzu Məmmədovdan sələmə pul aldığım təsdiqini tapıb"

Xatırladaq ki, Arzu Məmmədovun bəzi saytlarda videomüsahibəsi yayılmışdı. O, müsahibədə Daşkəsən Rayon İcra Hakimiyyətini bəzi məsələlərdə ittiham edib. A.Məmmədov iddia edib ki, yaralanıb hospitalda müalicə aldığı vaxtlarda icra hakimiyyətindən heç kim onunla maraqlanmayıb, baş çəkməyib, problemləri ilə maraqlanmayıb. O, başqa məsələlər barədə də öz narazılığını bildirib.

Bu müsahibə yayıldıqdan sonra Arzu Məmmədovun əmisi qızı, Daşkəsən Rayon İcra Hakimiyyətinin Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Aida Nağıyevanın adından mətbuata, o cümlədən "Yeni Müsavat"ın elektron ünvanına müraciət ünvanlanıb. Həmin müraciətin əsasında qəzetimizin 13 fevral, 2017-ci il tarixli sayında yazı ilə çap olunub. Yazı ilə aşağıdakı link vasitəsi ilə tanış olmaq olar:

http://musavat.com/news/bu-ehed-abiyeve-qarsi-ser-bohtan-kampaniyasidir-ih-den-aciqlama_505071.html

Bu günlərdə isə A.Məmmədovla arasında pul mübahisəsi olan İlhamə Bayramovanın müraciəti yayılıb.

**İ.Məmmədova bildirir ki, Arzu Məmmədov onun əmisi qızı Bayramova Ləman İslam qızının həyat yoldaşıdır.** "Saytlarda gedən "Qarabağ qazisindən sələmçi, dələduz olmaz" deyə guya Arzu Məmmədova iftira atılır ifadəsinə cavab olaraq bildirirəm ki, Arzu əvvəllər Daşkəsən rayonunda yaşadığı dövrdə "Kapital Bank"ın Daşkəsən filialında kredit şöbəsində işləmiş, sələmə pul vermək işində ustalaşmışdır. Burada da ciddi nöqsanlara yol verməsi səbəbindən həmin bank filialından qovulmuşdur.

Məsuliyyətdən yayınmaq məqsədilə rayondan çıxıb getdikdən sonra hərbi hissələrdən birinə müddətdən artıq xidmət edən əsgər kimi işə girmiş, məlum döyüşlər zamanı bir qolunu itirmişdir" - deyə müraciətdə qeyd olunur.

**İ.Məmmədovanın sözlərinə görə, A.Məmmədovun valideynləri ilə arasında narazılıq yarandığı üçün atası onu evdən qovub:** "Ona başqa ev almaq məqsədilə 2016-cı ilin yanvar ayında bankdan 10 min manat kredit götürərək Arzu Məmmədova vermişlər. Bu məsələ Daşkəsən Rayon Prokurorluğunda araşdırılarkən bank sənədlərində də öz təsdiqini tapıb. Yeni Arzu Məmmədovun kreditlə ev almaq məsələsi aprel döyüşlərindən çox əvvəl olub.

Lakin iddialarında tam yalan olaraq bildirir ki, o, mənimlə görüşdükdən və guya mənim ona ev təklifimdən sonra 2016-cı ilin iyul-avqust aylarında valideynləri kredit götürüblər. Guya atasının onun oğlunun gözünü əməliyyat etdirmək üçün illər öncə evini satdığı barədə yazdıqları yalandır. Bildirirəm ki, hazırda onun atası Ramiz Məmmədov Daşkəsən şəhəri T.İsmayılov küçəsi, bina 9, mənzil 16 ünvanındakı mənzilində yaşayır və heç zaman *(Arzunun özünün doğulub böyüdüyü)* evini satmayıb".

**İlhamə Bayramova bildirir ki, pula ehtiyacı olduğundan 2016-cı ilin iyul ayında ondan 6 min manat sələmlə pul götürüb. Sonradan Arzu Məmmədovun pulunu sələmi ilə birlikdə hissə-hissə qaytarıb:** "Rayon prokurorluğunda Arzu Məmmədovun iddiası hər ikimizin iştirakı ilə araşdırılarkən məhkəmənin qərarı əsasında əldə edilmiş onunla mənim aramızda olan telefon danışıqlarından, mesajlardan, pulu və sələmini qaytardığımı təsdiq edən şahidlərin ifadələrindən mübahisəmizin əsl səbəbi tam öz təsdiqini taparaq sübut olunmuşdur. Məlum olmuşdur ki, mənim Arzu Məmmədovdan ev məsələsi ilə bağlı aldadaraq pul almağım yalandır. Bu, sələmlə verilmiş borc pul mübahisəsidir".

**İ.Bayramovanın sözlərinə görə, A.Məmmədovun şikayəti ilə bağlı məsələyə rayon prokurorluğunda xitam verilməsi barədə 13.11.2017-ci il tarixdə məlumat verilsə də qarşı tərəf bundan xəbərsiz olduğunu iddia edir:** "Təkrarən qeyd edirəm ki, Arzu Məmmədovla aramızda yaranan mübahisə ev almaq üçün deyil, mənim ondan 10 faizlə sələmə pul götürməyimlə bağlıdır. Daşkəsən Rayon İcra Hakimiyyətinin bu məsələyə heç bir aidiyyəti və bağlılığı yoxdur. Bu bizim şəxsi məsələmizdir. Mən heç vaxt Arzu Məmmədovdan Gəncə şəhərində ev verilməsi müqabilində onun dediyi kimi, 20 min manat pul istəməmişəm".

**İlhamə Bayramova bildirir ki, A.Məmmədov onun barəsində sosial şəbəkələrdə yaymış olduğu məlumatlarla bağlı şərəf və ləyaqətini alçaltdığına görə məhkəməyə müraciət edib:** "Həmçinin Arzu Məmmədov iddia edir ki, o, Bakı şəhərində xəstəxanada yatarkən onun yanına Daşkəsən rayonundan vəzifəli şəxslərdən heç kim gəlməyib, onunla maraqlanmayıb. Lakin Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısının tapşırığı ilə mən özüm icra hakimiyyətinin məsul işçisi kimi, eyni zamanda bir neçə idarə, müəssisə rəhbərləri də ona baş çəkmişik. Bunu cənab prezidentin hospitalda yaralılarla və onların ailələri ilə görüşərkən çəkilmiş videolarda görmək olar. Həmin görüşdə şəxsən mən özüm iştirak etmişəm. Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən hər zaman ailəsinə diqqət və qayğı ilə yanaşılıb".

**E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Sərdar Cəlaloğlu İranda keçirdiyi görüşlərdən danışdı

## "Nə vaxtsa sizə qarşı "İrana işləyir" kampaniyası aparılacağından narahat deyilsinizmi" sualına ADP sədri nə dedi?

**ADP sədri Sərdar Cəlaloğlu İran səfəri ilə bağlı "Yeni Müsavat"a danışıb. S.Cəlaloğlu deyib ki, İran İslam İnqilabının 39-cu ildönümü münasibətilə Tehranda keçirilən tədbirlərə VİP sədri Əli Əliyev, özü və müavini Həsrət Rüstəmovdan başqa Azərbaycandan heç kim olmayıb: "Biz İslam inqilabının ildönümü ilə bağlı təşkil olunmuş ümumi kütləvi tədbirləri xarici qonaqlar üçün yarılmış xüsusi tribunadan izlədik. İranda cəmi üç gün olduq. İki dövlət televiziyasında çıxış elədik. "Səhər" telekanalının Azərbaycan dilində olan "Arena" və "Ay işığı" proqramında olduq. İran parlamentinin xarici işlər komissiyasının sədri, parlamentin sədr müavini ilə görüşümüz oldu. Geopolitik məsələlərlə, Azərbaycan-İran münasibətləri ilə bağlı ətraflı söhbət etdik. Sonra İranda fəaliyyət göstərən və namizədi ilə prezident seçkilərində iştirak eləmiş partiyaların rəhbərliyi ilə görüşdük. Onlar İslam ölkələrinin partiyalarının birliyini yaradıblar. O cümlədən Yeni Azərbaycan Partiyası da həmin birliyin üzvüdür. Bizi də o birliyə üzv olmağa dəvət elədilər. Çünki o birlik həm iqtidar, həm müxalifət partiyalarının birliyi kimi nəzərdə tutulub. Onlarla ətraflı söhbət elədik ki, partiyalar arasında əlaqələri necə qurmaq olar. Heydər Əliyev Azərbaycanda prezident olduğu vaxtlarda Qarabağın azad olunması istiqamətində fəaliyyət göstərmiş iki iranlı generalla görüşdük. Onlar Qarabağla bağlı İranın mövqeyini, bizə göstərdiyi yardımlarla bağlı ətraflı məlumat verdilər. İranın İraqda və bir neçə dövlətdə səfiri olmuş və bu dəqiqə də İran hakimiyyətinin siyasi məsləhətçilərindən olan Qumi ilə görüşdük. Sonra Məşhəddə olduq. Bütünlükdə üç gün ərzində mümkün olan ən sıx proqramla iştirak etdik".**



ADP sədrinin fikrincə, İran öz siyasətini getdikcə dünyəvi siyasət istiqamətinə dəyişdirmək üçün cəhdlər edir: "Xüsusən İrandakı son hadisələrdən sonra bu ölkənin özündə də belə bir fikir var ki, İslami islahatların həyata keçirilməsinin vaxtı çatıb. Hətta dövlət rəhbərlərinin çağırışları da bunu sübut edir. Azərbaycanla münasibətlərin yüksək səviyyədə qurulmasında maraqlı olduqlarını ifadə elədilər".

**"İrandakı siyasi dairələri Azərbaycanda keçiriləcək prezident seçkisi ilə maraqlanırmı" sualına ADP sədri belə cavab verdi:** "Ümumiyyətlə, görüşlərimizdə bizim üçün bir şey aydın oldu ki, Azərbaycan İran üçün iki mənada çox böyük əhəmiyyət daşıyır. Birincisi, qonşu dövlət kimi, tarixi, mədəni yaxınlığı olan bir dövlət kimi, ikincisi Rusiya ilə İran arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün Azərbaycana müstəsna rolu olan bir ölkə kimi baxırlar. Prezident seçkisi ilə bağlı, ümumiyyətlə, heç bir söhbət olmadı. Nə biz bu barədə fikir bildirdik, nə də onlar maraqlanmadılar".

**"Nə vaxtsa sizə qarşı "İrana işləyir" kampaniyası aparıla biləcəyindən narahat deyilsinizmi" sualına müsahibimiz belə cavab verdi:** "Əvvəla, "Siyasi partiyalar haqqında" Qanuna görə, siyasi partiyaların xarici əlaqələr yaratmağı qadağan deyil. İkincisi, bizim kimi təşkilatların əlaqələri də BMT-nin qəbul etdiyi proqramlar çərçivəsində həyata keçirilir. Yeni beynəlxalq təcrübə baxımından da bizim hansı xarici ölkə ilə əlaqələr qurmağımızda qanunsuz heç nə yoxdur. Mən gedib İranda və ya hansısa başqa xarici dövlətdə xalqımın maraqlarını açıq şəkildə ortaya qoyub müdafiə edirəmsə, burada pis heç nə yoxdur. Məsələn, biz orada dedik ki, Rusiya Qarabağ məsələsində bitərəf mövqe tutmayınca, Azərbaycan Rusiya ilə əməkdaşlığı inkişaf etdirsin. İrandan da Qarabağ məsələsində birmənalı olaraq ədalətli tərəfin-Azərbaycanın yanında olmasını istədiyimizi dedik. Bu, dövlətimizin xeyrinədir. İctimaiyyət qarşısında çıxış eləmişik, görüşlərimiz publik olub, keçirdiyimiz görüşlər, apardığımız müzakirələr barədə ətraflı məlumatları cəmiyyətlə bölüşürük. Bütün bunlara görə də heç kim bizə nə isə ittiham irəli sürə bilməz. İran əslində bizim üçün tam xarici dövlət deyil. Milli məsələlər baxımından yanaşanda azərbaycanlıların böyük çoxluğu İranın sərhədləri daxilində yaşayır. Biz İrana acıq edib öz xalqımıza arxa çevirməli deyilik. Oradakı soydaşlarımızın da taleyi bizim taleyimizdir. Biz məcburuq ki, İranla mütləq şəkildə əlaqələr saxlayaq".

**Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

Yeni Müsavat
N 37 (6926) 16 fevral 2018

# Hüquq-mühafizə orqanları rəhbərlərindən xəbərdarlıq

## Oruc Zalov: "Qeyri-qanuni, razılaşdırılmamış tədbirlərin qarşısı qətiyyətlə alınacaq"

## Rüstəm Usubov: "Qanunvericiliyi pozanlar ciddi şəkildə cəzalandırılacaqlar"

**Fevralın 15-də Mərkəzi Seçki Komissiyasının (MSK) dairə seçki komissiyalarının sədrləri üçün təşkil etdiyi seminar-müşavirə keçirilib. "Azərbaycanda seçkilərin keçirilməsi üçün ictimai-siyasi sabitlik var. Bu, sevindirici haldır".**

Müşavirədə Mərkəzi Seçki Komissiyasının (MSK) Məzahir Pənahov belə deyib. *(Yazıda APA və "Report"un xəbərlərindən istifadə olunub).*

MSK sədri bildirib ki, Azərbaycanda seçkilər şəffaf keçirilir. M.Pənahov vurğulayıb ki, ölkə prezident seçkisinə yüksək səviyyədə hazırlaşıb: "Azərbaycanda keçirilən seçkilər digər ölkələrə nümunədir. Ölkəmizin yüksək seçki təcrübəsi var".

M.Pənahov deyib ki, 13 nəfər prezidentliyə namizədliyini irəli sürüb. Onlar bununla bağlı müvafiq sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim ediblər. Namizədliyi təsdiqlənənlər hakim Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev, Milli Məclisin deputatı Zahid Oruc, Azərbaycan Liberal Demokratik Partiyasının sədri Fuad Əliyev, öz təşəbbüsləri ilə namizədliklərini irəli sürən Tural Abbaslı və Anar Umudovdur.

"Seçkilərin demokratik və şəffaf keçirilməsi sahəsində Azərbaycan prezidenti müvafiq tələblər, vəzifələr qoyub. Əvvəllər bizdə hər seçkidən sonra DSK-ların, məntəqə seçki komissiyalarının ləğv olunması, icra hakimiyyəti başçılarının işdən azad olunması baş verirdi. Artıq bu kimi hallar keçmişdə qalıb". Prezidentin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri Zeynal Nağdəliyev çıxışında belə deyib.

**Prezidentin köməkçisi qeyd edib ki, seçkinin demokratik keçirilməsinin əsas şərti ictimai-siyasi sabitlikdir:** "Azərbaycan bu sahədə nümunəvi ölkələrdən biridir. Sabitliyin əsasında iqtidar-xalq birliyi durur. Ölkəmizdə mühit dəyişib, insanlar 15 il əvvəlki dövlətdə yaşamırlar. İnkişaf etmiş, demokratik ənənələri daha inkişaf etmiş bir ölkədə yaşayırlar".



**Müşavirədə daxili işlər nazirinin müavini Oruc Zalov çıxışında deyib ki, DİN prezident seçkisi ilə bağlı proqram hazırlayıb. Nazir müavini qeyd edib ki, təşviqat kampaniyası zamanı namizədlərin təhlükəsizliyi təmin olunacaq:** "Qeyri-qanuni, razılaşdırılmamış tədbirlərin qarşısı qətiyyətlə alınacaq. Etik davranış qaydaları tam nəzarətdə olacaq. Ədavətə çağırışların, dini, irqi ayrı-seçkiliklə bağlı çağırışların qarşısı alınacaq".

**Baş prokurorun birinci müavini Rüstəm Usubov ölkədə mövcud olan siyasi sabitliyin, demokratik prinsiplərin seçkilərin şəffaf şəraitdə keçirilməsinə tam imkan verdiyini deyib.**

"Ölkədə prokurorluq orqanları seçkilərin keçirilməsində qanunçuluğa əməl edilməsinə nəzarət edir. Bu prosesdə qanunazidd hərəkətə yol verənlərin məsuliyyətə cəlb olunması əsas məsələlərdəndir. Qanunvericiliyi pozanlar ciddi şəkildə cəzalandırılacaqlar. Bu, dövlətin tədbiridir, hamımız vicdanla, namusla çalışmalıyıq. Elə olmalıdır ki, seçki bitəndən sonra üzümüz ağ, alnımız açıq bir-birimizin üzünə baxa biləkk" - deyə, o əlavə edib.

**Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev deyib ki, seçki həssas prosesdir:** "Seçki də yeniliklərə məruz qalır, bu da təbiidir. Dünyada mürəkkəb proseslər baş verir. Hər şey sabit deyil. Bu, seçki prosesinə də təsir edir. Ölkədə əmin-amanlıq var. Bu, seçkiyə də öz təsirini göstərir. Sabitlik imkan verir ki, seçkilər şəffaf keçirilsin".

**Ədliyyə nazirinin müavini Azər Cəfərov deyib ki, ədliyyə orqanlarının seçkilərin keçirilməsi və təşkilində vəzifəsi məlumdur:** "Bura normativ sənədlərin təsdiq edilməsi, penitensiar müəssisələrdə, yəni istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində seçkilərin təşkil edilməsi daxildir. Artıq 22 ildir ki, Azərbaycanda azadlıqdan məhrum edilmiş şəxslərin seçkilərdə iştirakını təmin etmək üçün seçki komissiyaları ilə sıx əməkdaşlıq həyata keçirilir. Məhkumların və azadlıqdan məhrum olunmuş şəxslərin seçki hüquqları təmin olunur. Almaniya, Macarıstan, Bolqarıstan kimi ölkələrdə bu insanların belə hüquqları yoxdur. Bəzi ölkələrdə isə ağır cinayət törətmiş, müəyyən müddətə azadlıqdan məhrum edilmiş şəxslərin belə hüquqları yoxdur".

Nazir müavini deyib ki, 2013-cü ildə keçirilən prezident seçkilərində penitensiar müəssisələrdə cəza çəkən insanların, məhbusların 99 faizinin iştirakı təmin edilib.

❑ **E.SEYİDAĞA,**
❑ **"Yeni Müsavat"**



## Şeyx dünyanın dini liderlərini Xocalı soyqırımını tanımağa çağırdı

**Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar dünya dini liderlərinə, xarici ölkələrin parlamentlərinə, beynəlxalq təşkilatlara və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət edib.**

Müraciətdə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçılarının öz havadarlarının köməyi ilə Xocalı şəhərində törətdiyi dəhşətli qırğın xatırlanır: "Mahiyyəti etibarilə, Xocalı faciəsi Holokost, Hernika, Xatın soyqırımları kimi insanlığa qarşı törədilmiş cinayətlərlə eynidir. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycan xalqı öz doğma torpaqlarında etnik təmizləmə, maddi və mənəvi terrora məruz qalmış, erməni ekstremistləri ərazimizin 20 faizini işğal etmiş, bir milyondan artıq azərbaycanlını doğma yurdlarından didərgin salmış, zəbt etdikləri Qarabağ torpaqlarında vandalizm aktları həyata keçirərək tarixi, dini və mədəniyyət abidələrimizi məhv etmişlər. Xocalıda məqsədyönlü soyqırım aktı isə erməni vəhşiliklərinin kulminasiya nöqtəsidir".

**Müraciətdə daha sonra deyilir:** "Biz, Azərbaycan dindarları ölkəmizin ərazi bütövlüyünün Ali Baş Komandanımızın rəhbərliyi ilə bərpası yönündə səylərin uğurla nəticələnməsinə inanır və onun üçün dualar edir, Vətənimizin ayrılmaz hissəsi olan Qarabağda torpaqlarımızın azad olması uğrunda həlak olmuş bütün şəhidlərin, o cümlədən Xocalı şəhidlərinin əziz xatirəsini daima uca tuturuq. Bütün dünya xalqlarına sülh, səadət, əmin-amanlıq və rifah diləyən hər birimizin Rəbbimiz qarşısında, bəşəriyyət qarşısında vicdan naminə müqəddəs borcumuz ədalətin bərqərarına nail olmaqdır. Dünyanın dini liderlərinə, parlamentlərə, beynəlxalq təşkilatlara və İnsan hüquqları üzrə Avropa Məhkəməsinə bir daha müraciət edərək, onları Azərbaycan xalqına qarşı erməni ekstremistlərinin təcavüzünə və vəhşiliklərinə prinsipial siyasi, hüquqi qiymət verməyə, Xocalıda törədilən cinayəti soyqırım aktı kimi tanımağa çağırırıq".

# Boykot və iştirak qərarı verən partiyalarda istefalar ola bilər

## Arif Hacılı Tofiq Yaqublunu müavinlikdən çıxarmasının səbəbini açıqladı

**Müsavat Partiyasının başqanı Arif Hacılı Tofiq Yaqublunu partiya başqanının müavini vəzifəsindən azad etməsinə aydınlıq gətirib. Report-un xəbərinə görə, Hacılı deyib ki, başqan müavini vəzifəsi konkret icra funksiyalarının həyata keçirilməsini nəzərdə tutur.**

O bildirib ki, Tofiq Yaqublu başqan müavini kimi bu funksiyaların həyata keçirilməsinə kifayət qədər diqqət və zaman ayıra bilmədiyi üçün vəzifəsindən azad edilib.

"Tofiq Yaqublu Müsavat Partiyası Divanının üzvüdür və bundan sonra da partiyada fəaliyyətini davam etdirəcək", - deyə o bildirib. **Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı** isə modern.az saytına açıqlamasında deyib ki, Tofiq Yaqublunun başqan müavini vəzifəsindən azad edilməsinə Milli Şuranın üzvü olması səbəb deyil: "Bəziləri Tofiq Yaqublunun partiyadan çıxarıldığını belə iddia edir. Lakin Tofiq Yaqublunun Müsavat Partiyasından uzaqlaşdırılması haqqında heç bir qərar yoxdur. Kimsə bu cür fikirlər səsləndirirsə, böyük yanlışlığa yol verir. Tofiq bəy, sadəcə, başqan müavinliyi vəzifəsindən azad olunub. O, Müsavat Partiyasının və partiya Divanının üzvü olaraq da qalmaqdadır. Digər tərəfdən, onun başqan müavini vəzifəsindən uzaqlaşdırılmasını Milli Şura ilə bağlayırlar. Fikirlər səslənir ki, Tofiq Yaqublu paralel olaraq Milli Şuranın üzvü olduğu üçün belə addım atılıb. Bütün bu düşüncələr həqiqətə uyğun deyil. Tofiq bəyin başqan müavinliyindən azad olunması başqanın səlahiyyətləri daxilindədir".



Qeyd edək ki, Tofiq Yaqublu 10 ildən artıq müddətdə Müsavat Partiyası başqanının müavini olub. Onun başqan müavinliyindən çıxarılması barədə Arif Hacılı fevralın 14-də sərəncam verib. T.Yaqublu özü isə deyib ki, müavin vəzifəsindən azad edilsə də, partiyanın Məclis və Divan üzvü olaraq qalır: "Bunu Arif Hacılı ilə danışmışıq və səbəblər izah olunub. Müavinlik vəzifəmdən kənarlaşdırılsam da, partiyada qalıram".

"Yeni Müsavat"ın əldə etdiyi məlumatlara görə, Tofiq Yaqublu ilə partiyanın başqanı və rəhbərliyinə daxil olan bir neçə şəxsin münasibətlərində bir neçə aydan bəri davam edən fikir ayrılığı hökm sürüb. Belə ki, T.Yaqublu həbsdən azad edildikdən sonra Müsavat rəhbərliyi ondan Milli Şura üzvlüyündən istefa verməsini gözlədiklərini bir neçə dəfə nəzərinə çatdırıblar. Lakin o, Milli Şurada qalmağının Müsavat Partiyasındakı fəaliyyətinə mane olmadığını deyib. Son aylarda isə Tofiq Yaqublunun Müsavatın növbəti qurultayında başqanlığa namizədliyini irəli sürəcəyi barədə məlumatlar yayılmışdı. Keçmiş başqan müavini bu məlumatları təkzib etməyib. Xəbərlərə görə, Yaqublu başqanlıq iddiasının olduğunu partiyada gizlətmirmiş. Hətta ona yaxın partiya üzvləri bu istiqamətdə müəyyən iş də aparırlarmış. Partiya rəhbərliyinin onunla münasibətlərinin soyuqlaşmasında həm də bu məqamın olması istisna deyil.

**Dünən Tofiq Yaqublu ilə əlaqə saxlayıb deyilənlərin nə dərəcədə düzgün olub-olmadığını öyrənmək istədik. Bildirdi ki, başqan müavini vəzifəsindən azad edildiyi günü açıqladığı mövqedə qalmaqda qərarlıdır:** "Bu mövzuda hər hansı suala açıqlama verməmək düşüncəsindəyəm. Hələlik bu düşüncədəyəm ki, cavablandırmamaq daha məqsədəuyğundur".

Partiya üzvlüyündən çıxmağı düşünüb-düşünmədiyi, üzvlükdən xaric edilib-edilməyəcəyi ilə bağlı sualımıza da o, cavab vermək istəmədiyini dedi.

Onu da qeyd edək ki, növbədənkənar prezident seçkisini boykot edən və seçkidə iştirak etməmək qərarı verən siyasi təşkilatların daxilində bu qərarların müəyyən fəsadlar meydana çıxaracağı proqnozları verilirdi. Bu fikirdə olanlar hesab edirlər ki, siyasi təşkilatlar boykot və seçkidə iştirak etməmək qərarlarını heç də yekdilliklə qəbul etməyiblər. Təşkilatların daxilində seçkiyə qatılmağın lazım olduğunu düşünən və bu mövqelərini məsələ müzakirəyə, səsverməyə çıxanlanda ortaya qoyanlar da olub. Odur ki, seçkidə iştirak etməmək və boykot qərarı verən siyasi qurumlardan seçkiyə qədər istefaların olacağı da istisna deyil.

❑ **Etibar SEYİDAĞA,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 37 (6926) 16 fevral 2018

**Ötən ilin dekabr ayının 5-də gözlənilmədən vergilər naziri postundan uzaqlaşdırılan Fazil Məmmədov ətrafında yeni proseslər başlayıb. Əslində hər şey görüntü olaraq sabiq nazirin istəyinə uyğundur: ölkədən qaçmayıb, barəsində cinayət işi açılmayıb, hətta rəhbərlik etdiyi idman federasiyasında işini davam etdirir. Amma onun adı ətrafında cərəyan edən məsələlər də var ki, bunu elə F.Məmmədovun özü açıqlayıb.**



# Fazil Məmmədov adamlarını ələ verməyə başladı-sensasion gəlişmə

## Sabiq vergilər naziri mümkün həbsdən özünü sığortalamaq üçün müqavimət göstərir; o, “kiməsə qanundankənar nəsə yazılıbsa, bundan mənim xəbərim yoxdur” deməklə nəyə nail olmaq istəyir?

Fevralın 14-də **Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılov** ötən il hüquqi şəxslərdən və sahibkarlardan daxil olan şikayətlərdən danışıb. Şöbə müdiri deyib ki, 278 şikayətdə vergi, hüquq-mühafizə, şəhər və rayon icra hakimiyyəti orqanlarının, ayrı-ayrı vəzifəli şəxslərin sahibkarların işinə maneələr yaratmasından narazılıq bildirilib və kömək istənilib.

Onun sözlərinə görə, sahibkarlar bəzi hallarda vergi orqanlarının onlara əsassız olaraq külli miqdarda borc yazmasından, buna görə fəaliyyətlərini dayandırmağa məcbur olduqlarından, Vergilər Nazirliyinin Bakı Şəhəri Lokal Gəlirlər Departamenti tərəfindən bank hesablarının bloklanmasından, qanunsuz sərəncamların tətbiq edilməsindən və digər məsələlərdən narazılıqlarını bildirdiklərini qeyd edib.

**Prezident Administrasiyasına edilən şikayətlərlə bağlı “Bizim Yol”a danışan keçmiş nazir heç bir halda qanundankənar iş görülmədiyini bildirib:** “Kim şikayət edib məndən? Bu nədir yazırsız... Heç kimin hesabı qanunsuz dondurula bilməz”. Sabiq nazir onun işlədiyi dövrdə vergilərlə bağlı əlavə ödənişlər tələb edilməsi ilə bağlı tənqidlərə də münasibət bildirib.

“Heç kimə əlavə borc yazıla bilməz. Kimə nəsə yazılıbsa, o da qanun çərçivəsində yazılıb. Kiməsə qanundankənar nəsə yazılıbsa, bundan mənim xəbərim yoxdur. Kim edib cəzasını almalıdır” deyə, o bildirib.

**Qeyd edək ki, həftənin əvvəlində yeni vergilər naziri Mikayıl Cabbarov F.Məmmədovun rəhbərlik etdiyi vaxtı tənqid edib.** “Bir çox vergi ödəyiciləri öz təsərrüfat fəaliyyətinin nəticələrinin hesablanmasının gəlir və xərclər üzərində aparılması ilə deyil, bəzi hallarda ən asan üsulla - dövriyyənin hesablanmasına sövq edilməsi, bunun nəticəsində audit institutunun əhəmiyyətli dərəcədə itirilməsi, plan və proqnozun yerinə yetirilməsi naminə vergi ödəyicilərindən ödənilməli olan vergi məbləğindən artıq ödəmələrin tələb edilməsi, bu ödəmələrin həcminin ilbəil artması, neft və qeyri-neft sektorlarında vergi yükünün qeyri-mütənasib paylanılması özəl biznesə qarşı bugünkü tələblərə cavab verməyən metodlarını olduğunu göstərir və işgüzar aktivliyin rəsmi sahədən qeyri-rəsmi sahəyə keçidi ilə nəticələnir. Belə təcrübənin yolverilməzliyi xüsusən kiçik və orta sahibkarlıq sahəsində özünü büruzə verir”, deyə, M.Cabbarov vurğulayıb.

Yada salaq ki, yeni təyin edilmiş vergilər nazirinin kollektivə təqdim olunması zamanı Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev də F. Məmmədovun fəaliyyətini tənqid etmişdi.

Təbii ki, hər bir nazirliyin fəaliyyətində nöqsanlar olur və bu, F.Məmmədovun uzun illər rəhbərlik etdiyi Vergilər Nazirliyinə də aiddir. Bəs niyə F.Məmmədov bu tənqidlərlə razılaşmır? Sabiq nazir niyə narahatdır?

Sabiq nazirin tənqidlərə dözümsüz münasibəti, “kiməsə qanundankənar nəsə yazılıbsa, bundan mənim xəbərim yoxdur. Kim edib cəzasını almalıdır” deyərək müqavimət göstərməsi əbəttə ki, təsadüfi deyil. Məlumdur ki, M.Cabbarov vergilər naziri təyin edildikdən sonra nazirlikdə kadr islahatlarına start verib. Vergilər Nazirliyində müxtəlif vəzifələrdə islahatlar aparılır, ixtisarlar edilir. Nazirlikdə işdən çıxarılanlar arasında keçmiş nazirin qohumları da var.

F.Məmmədovun bacısının həyat yoldaşı, Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti rəisinin 1-ci müavini Namiq Quliyev ötən ilin dekabrında vəzifəsindən kənarlaşdırılıb. Keçmiş nazirin qudası, vergilər nazirinin müavini Namiq Əliyevin işdən çıxarılması ilə bağlı müvafiq sərəncam isə yanvarın 12-də verilib. Sabiq nazirin bacısı oğlu, Vergilər Nazirliyi yanında Bakı şəhəri Lokal Gəlirlər Departamentinin Bəyannamələr İdarəsində direktor müavini Elnur İsgəndərov da vəzifəsindən uzaqlaşdırılıb.

Gələn məlumatlar onu deməyə əsas verir ki, F.Məmmədovun komandası canını işdən azad edilməklə qurtarmaya bilər. İddia olunur ki, F. Məmmədovun iri çaplı sahibkarlara qarşı tətbiq etdiyi “dinmə, ver, vergisi”nə məruz qalanların siyahıları tutulur. Onların ödədikləri məbləğlərin hesabatı hazırlanır. Toplanan materialların sonradan cinayət işlərinin əsasını təşkil edəcəyi də istisna deyil. Əldə olunan məlumatlar təhlil edilədən sonra isə Fazil Məmmədovun kadrlarına qarşı ittihamlar irəli sürülə bilər.

Mümkündür ki, sabiq nazirin işə qəbul etdiyi və yaxın çevrəsinə daxil olan bir neçə iri vergi məmuru qandallansın. Onların isə Fazil Məmmədova qarşı ifadə verəcəyi istisna deyil. Bu səbəbdən də ehtimal etmək olar ki, sabiq nazir indidən özünü sığortalayır və “kiməsə qanundankənar nəsə yazılıbsa, bundan mənim xəbərim yoxdur” deməklə, adamlarını ələ verir və məsuliyyəti üzərindən atmaq istəyir.

❑ **“YM”**

# Xaləddin İsgəndərov ona pul “atan” qardaşı oğlunu rayondan qovdu



## Valeh İsgəndərovu başçının digər qardaşı oğlu Nicat İsgəndərov əvəzlədi; adı qalmaqallı ev söküntüsündə keçən Rafael Məmmədov da “qoçu dəstəsi”ndən uzaqlaşdırıldı

**Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov qardaşı oğlu Valeh İsgəndərovu və dəllal Rafael Məmmədovu rayondan qovub. Bu haqda redaksiyamıza daxil olan məlumatda deyilir ki, başçı hər 2 şəxsin fəaliyyətini yoxlatdırıb və aydın olub ki, qeyri-rəsmi yığımların bir hissəsi oğurlanıb. Valeh İsgəndərov qovulub və onu Xaləddin İsgəndərovun digər qardaşının oğlu Nicat İsgəndərov əvəzləyib. Bundan sonra Binəqədidə tikintilərdən yığılan pullar Nicat İsgəndərova ötürüləcək.**

Valeh İsgəndərov illər idi ki, Binəqədi Rayon İcra Hakimiyyətində əmisinin tikinti-söküntü işlərindən gələn gəlirlərə nəzarət edirdi. Binəqədi Rayon İcra Hakimiyyəti binasında ayrıca kabinetdə otursa da, o, rəsmi işçi deyildi. Xaləddin İsgəndərovun rayon ərazisində aparılan tikililərdən yığılan pulların təhvil verildiyi şəxs kimi ad çıxarmışdı. Xaləddin İsgəndərovun söküntü işlərini gerçəkləşdirən dəstələrinə ümumi rəhbərliyi isə rayon təsərrüfat şöbəsinin müdiri Qüdsi Bayramov həyata keçirir. Onun atası Həsən Bayramov Binəqədi seçki dairəsinin sədridir. Həsən Bayramov Azərbaycan Beynəlxalq Universitetində Elşad Abdullayevin *(hazırda Fransada mühacir həyatı yaşayır, barəsində cinayət işi var-red.)* müavini olub. Qüdsi Bayramov əvvəl Binəqədi Gənclər və İdman İdarəsinin müdiri olub. İddiaya görə, Binəqədi rayonu ərazisində aparılan bütün tikintilərdən gələn pullar Qüdsi Bayramovda toplanır. Vətəndaşın tikinti aparmağa sənədi var, yoxdur, bu, Qüdsi Bayramovu maraqlandırmır. Deyir ki, tikinti aparılırsa, rəsmi icazə ilə yanaşı, qeyri-rəsmi icazə də alınmalı, buna görə pul verilməlidir. Verilmirsə, vətəndaşı tikinti aparmağa qoymurlar, işinə mane olurlar. Tikinti-söküntü ilə əlaqəli maliyyə məsələlərinə Sulutəpə qəsəbəsində Ramin, Fuad, Azər, Biləcəridə Orxan adlı şəxslər və son günlərə qədər Rafael Məmmədov, Novxanıda Binəqədiyə aid hissədə isə Rəşad, Binəqədi kəndində Pərviz, Zaur, Arif adlı adamlar nəzarət edirlər. Orxan başçının vaxtilə sürücüsü olan Azər Kazımovun oğludur. 26 yaşlı Orxan Kazımov Biləcəri qəsəbəsi icra nümayəndəsinin müavinidir.

İddia olunur ki, Xaləddin İsgəndərov son 1 ay ərzində Binəqədi rayonu ərazisində aparılan və qeyri-qanuni olaraq pul alınan tikililərin sahiblərini sorğuladıb. Məlum olub ki, Valeh İsgəndərova verilən pulların bir hissəsi ortada yoxdur. Bundan başqa, Valeh İsgəndərovun xanım teleaparıcılardan birinə ev, villa alması haqda məlumatlar da yoxladılıb. Məlum olub ki, həmin xanım aparıcıya yeni tikilmiş binalarda 2 mənzil, İstanbulda ev, Bilgəh qəsəbəsində bağ evi, Sulutəpə qəsəbəsi, Mədən yolunda 313 saylı məktəbin yanında villa tikdirərək hədiyyə verib. Həmçinin bir qədər əvvəl ona “Jeep” markalı maşın alıb bağışladığı da üzə çıxıb. Xaləddin İsgəndərov Valeh İsgəndərovu yanından uzaqlaşdırandan sonra Rafael Məmmədovu da yanına çağıraraq onu həbslə hədələyib. Amma sonradan başçını fikrindən daşındırıblar. Deyiblər ki, Rafael Məmmədov tikintilərdən aldığı pulları Valehə verib. Onu tutdursan, Valehin adını verəcək, ara qarışacaq. Buna görə də Xaləddin İsgəndərov Rafael Məmmədovu rayonda gözə görünməməsi şərti ilə qeyri-qanuni dəstədən uzaqlaşdırıb.

Rafael Məmmədov Biləcəri qəsəbəsində Xaləddin İsgəndərovun qeyri-rəsmi göstərişlərini yerinə yetirən şəxs kimi ad çıxarmışdı. Onun sonuncu işi Biləcəri qəsəbəsi, 9-cu sahədə yerləşən Ceyran Alışan qızı Rəfiyevanın evinə hücum edib aparılan tikintiyə görə pul tələb etməsi, ala bilmədikdə isə evin uçurulması olmuşdu. Rəfael Məmmədov uzun illər idi ki, Binəqədi Rayon İcra Hakimiyyəti Biləcəri qəsəbəsi üzrə nümayəndəliyində onun üçün ayrılmış kabinetdə əyləşirdi, özünü nümayəndəliyin əməkdaşı kimi təqdim edib tikinti aparanların gününü qara etməklə məşğul idi.

Əslən Ermənistanın Masis rayonundan olan Rafael Məmmədov Binəqədi rayonu, Məhəmməd Əmin Rəsulzadə qəsəbəsində qeydiyyatdadır, orada yaşayır. O, Xaləddin İsgəndərov Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilənə qədər yaşadığı rayonun ərazisində dəllallıqla məşğul olub. Ortabab həyat yaşayıb. İndi isə Rafael Məmmədovun Biləcəri qəsəbəsində və Bakı şəhərinin müxtəlif məkanlarında çoxlu evlərinin olduğu iddia edilir. Xaləddin İsgəndərovun ev yıxan, tikintiyə dair icazə verib pul yığan dəstələrinə qoşulandan sonra Rafael Məmmədovun var-dövləti gün-gündən artıb. Hazırda onun istifadəsində “Prado”, “Niva”, son model “Mercedes” markalı və digər maşınların olduğu bildirilir. Rafael Məmmədovun Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi əməkdaşları tərəfindən axtarılması haqda da iddia var...

Valeh İsgəndərov Binəqədidən qovulandan sonra Tərtər rayonuna qayıdıb. Onu yaxın zamanlarda Türkiyəyə köçəcəyi deyilir.

❑ **E.HÜSEYNOV**
❑ **“Yeni Müsavat”**



# Əliəyrilərin artırdığı əlillər

Xalid KAZIMLI

**Bir neçə gün öncə deputat Hadi Rəcəbli parlamentdə çıxış edərkən, hazırda ölkəmizdə 620 min əlilliyi olan şəxsin olduğunu deyib.**

620 (altı yüz iyirmi) min. Yəni yarım milyondan 120 min nəfər çox.

Bu, kiçik rəqəm deyil, hətta çox böyük rəqəmdir. Bu sayaq rəqəmin böyük-kiçikliyi bir qayda olaraq müqayisədə ortaya çıxır.

Bunu da jurnalist Xəqani Səfəroğlu edib. O, kiçik bir araşdırma apararaq öyrənib ki, əhalisinin sayında görə, təxminən biz boyda olan Belarusda 113 min əlilliyi olan vətəndaş qeydiyyatdadır.

Bu, belaruslu əlillərin sayının bizdən 5 dəfə az olması deməkdir.

Burada təbii ki, biz müharibə faktorunu, Qarabağ döyüşlərində fiziki xəsarət alan 50 mindən artıq vətəndaşımızı nəzərə almaq lazımdır.

Bu halda da Belarusun və Azərbaycanın müvafiq göstəriciləri bir-birinə yaxınlaşmayacaq.

Ermənistanın əlillərinin sayına baxaq. Bu ölkənin 3 milyondan bir az artıq əhalisinin 182 mini əlildir. Ermənistan da müharibə ölkəsidir və bizim müharibədə xəsarət alanlarımız nə qədərdirsə, aşağı-yuxarı, onlarınkı da o qədərdir. Ancaq göründüyü kimi, ermənilərin əlilləri 200 minə çatmır, bizimki 600 mini aşıb.

4 milyona yaxın əhalisi olan Gürcüstanda 123 min, 160 milyonluq Rusiyada 12 milyon əlil var. 50 milyonluq Ukraynada isə 2,8 milyon əlil qeydiyyatdadır.

Rəqəmlər bundan ibarətdir və açıq-aydın görünür ki, Azərbaycandakı əlillərin sayı qat-qat çoxdur.

Görəsən, bu niyə belədir? Millətin genefondu zədələnibmi?

Bəlkə bu qədər əlillərin ortaya çıxması qohum nikahlarının faciəvi nəticəsidir?

Yoxsa ölkəmizdə heç bir sahədə təhlükəsizlik texnikasına riayət olunmur və bu əlillər ordusu istehsalat qəzaları nəticəsində yaranır?

Əslində heç biri deyil. Nə irsi xəstəliklər, nə 25 ildir bitmək bilməyən müharibə, nə istehsalat qəzaları, nə də digər səbəblər Azərbaycan böyüklükdə olan ölkədə əlillərin sayını bu qədər artıra bilməz.

Birmənalı olaraq burada subyektiv səbəblər var. İlk növbədə əlillərin sayının şişirdilməsindən şübhələnmək lazımdır. Burada məqsəd dövlət büdcəsindən sosial müdafiə fonduna ayılan milyonların yeyilməsidir.

Bu trend hələ sovet dövründə də vardı. Sosial təminat şöbələrində çalışan adamlar öz qohum-əqrəbalarının, dost-tanışlarının müəyyən bir hissəsinə "əlillik pensiyası" düzəldirdi və tərəflər qarşılıqlı şəkildə faydalanırdılar.

Tam əmək qabiliyyətinə malik, sapsağlam adamlar hər ay dövlət büdcəsindən gələn bir miqdar pulu mənimsəyib ciblərinə qoymaqdan çəkinmir, bunu özlərinə rəva görür, bir söz deyənlərə də "dövlətin puludur, bir az da biz alıb yesək, dövlət dağılmaz" deyə cavab verirdilər.

Beş-altı əvvəl bir ara saxta əlillərə qarşı bir reyd başlanmışdı, onları araşdırır, yenidən sənəd təqdim etmələrini, tibbi ekspertizadan təkrarən keçmələrini tələb edirdilər. Amma bunun əsas zərbəsi gerçək əlillərə dəyirdi.

Onlar fiziki hərəkətləri məhdud olduğu halda qapı-qapı gəzib sənəd toplamalı, yenidən ekspertizadan keçməli olurdular. Hərdən bəziləri tibbi ekspertlərə etiraz edib deyirdilər: "Görürsünüz ki, ayağımın biri dizdən aşağı yoxdur. Mən ildə-ildə niyə ekspertizadan keçməliyəm? Sizcə, bu il olmayan ayaq gələn il yenidən çıxacaq?"

Təbii ki, onlar haqlıydı. Haqsız olanlar isə əsl əlillərin haqqına girənlər idi və bu filtrasiya onların aşkarlanmasına yönəldilmişdi. Fəqət tamahkar, əliəyri məmur faktoru olan yerdə onlar da komissiyadan keçməyi bacarır, əlillik təqaüdü almaqda davam edirdilər.

Müftəxorluğun norma olduğu, dövlət büdcəsini talamağın qəbahət sayılmadığı cəmiyyətlərdə bu sayaq xırda dələduzluqlar və əliəyriliklər o qədər təəccüblü deyil.

Bax, ona görə də əlillərə aid rəqəmlər gəlib belə bir fantastik həddə çatıb.

Əlillik təqaüdü almaq haqqı olmayanların bu qədər çox olması üzündəndir ki, gerçəkdən də əlil olan və əmək qabiliyyəti olmayanların aldığı təqaüdün həcmini qaldırmaq olmur.

**Ötən ilin payızından etibarən Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsi boşdur. Qeyd edək prezident Vladimir Putin səfir Vladimir Doroxini 2017-ci ilin noyabrında postundan azad edərək geri çağırıb.**



# Kreml Azərbaycana səfir təyinatını yubadır: diplomatik təzyiq, yoxsa...

## Şimal qonşumuz diplomatiyada yeni təzyiq üsuluna əl atıb; sabiq nazir Tofiq Zülfüqarov burada ermənipərəst qüvvələrin əlinin olmasını istisna etmir

Doroxindən sonra səfir vəzifəsinə ermənipərəst mövqeli Georgi Zuyevin təyin olunacağı barədə də məlumatlar yayılmışdı. Lakin bildirildi ki, rəsmi Bakının etirazı Kremli bu təyinatla bağlı mövqeyindən geri çəkilməyə vadar edib. Doğrudur, sonradan Rusiya XİN başçısı Sergey Lavrov bildirdi ki, guya Moskva G.Zuyev üçün Azərbaycandan heç vaxt aqreman xahiş eləməyib. Ancaq 2017-ci ildə S.Lavrovun və Rusiya XİN-in sözçüsü Zaxarovanın bir neçə dəfə Azərbaycanı təhdid edən açıqlamaları səfir təyinatında ermənipərəst namizədə üstünlük verilməsi ehtimalını xeyli gücləndirir. Üstəlik, ötən aylarda Rusiyanın səfiri postunun vakant qalması da suallar doğurur. Bir sıra müşahidəçilər hesab edir ki, səfir təyinatının gecikdirilməsi Rusiyanın Azərbaycana təzyiqi ola bilər.

Qeyd edək ki, Rusiya 5 ildir Ermənistanda fövqəladə və səlahiyyətli səfir kimi çalışan diplomat İvan Volınkini də əvəz etmək barədə düşünür. Erməni mətbuatı yeni səfirin 2018-ci ilin mart ayına qədər təyin olunacağını yazıb. Yeni səfirin kim olacağı hələlik məlum deyil.

Bəzi müşahidəçilər hesab edir ki, şimal qonşumuz diplomatiyada yeni təzyiq üsuluna əl atıb. Belə ki, 2013-cü il prezident seçkiləri ərəfəsində "Milyarderlər ittifaqı"nı yaradaraq Bakıya təsir etməyə çalışan Moskva bu dəfə də seçkiqabağı situasiyaya səfir təyinatını gecikdirməklə təzyiq etmək istəyir. Düzdür, səfirlik fəaliyyətdədir, Bakı-Moskva münasibətlərində hər hansı açıq gərginlik yoxdur. Lakin beynəlxalq təcrübəyə görə, səfirin təyin olunmaması dolayı təzyiq vasitəsi sayılır. Bir neçə il əvvəl ABŞ də bənzər metoddan yararlanmışdı.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Yeni Müsavat"a bildirdi ki, o, bu məsələyə böyük diqqət yetirilməsini məsləhət görmür:** "Səfirliklərin dövlətlərarası əlaqələrdə özünəməxsus yeri var, amma onların mövqeyi həlledici deyil. Çünki dövlət başçılarının münasibəti, digər məmurların mövqeyi mövcuddur. Vaxtilə səfir vəzifəsinə ayrı bir namizədin adı çəkilirdi, ancaq sonradan bu məsələ arxa plana keçdi. Texniki baxımdan səfirin təyinatı xarici işlər nazirinin səlahiyyətindədir. Yəni o, namizədi irəli sürür və dövlət başçısı təsdiqləyir. Amma Rusiya XİN-in başçısı Sergey Lavrovun ermənipərəst mövqeyi hər kəsə bəllidir. Belə fikirlər səslənirdi ki, o, erməni lobbisinin işlərinə rəhbərlik edir. Rusiyadakı ermənipərəst mövqeli şəxslər Rusiya-Azərbaycan əlaqələrinə ziyan gətirir. İstisna etmirəm ki, ləngimə məsələsi bununla da bağlı ola bilər. Yəni ermənipərəst qüvvələrin bu məsələlərdə əli ola bilər. Amma bir daha təkrar edirəm, bu vəzifə həlledici vəzifə deyil".

**Politoloq Elçin Mirzəbəyli isə əməkdaşımızla söhbətində də məsələyə fərqli prizmadan yanaşdı:** "Rusiya qanunvericiliyinə görə, səfirin bu və ya digər ölkədə xidmətinin müddəti dövlət başçısı tərəfindən müəyyənləşdirilir. Rusiyanın diplomatik xidmət haqqında federal qanunvericiliyində fövqəladə və səlahiyyətli səfirlərin təyin edildikləri ölkədə xidmət keçmələri üçün konkret müddət nəzərdə tutulmayıb. Bu isə o deməkdir ki, Rusiya prezidenti səfir Doroxini geri çağırmaya bilərdi. Vladimir Doroxinin Zambiya Respublikasına səfir təyin edilməsi sübuta yetirir ki, diplomatın səhhəti, yaxud ailə vəziyyəti ilə bağlı hər hansı bir problem olmayıb. Çünki hazırda o, Rusiya Federasiyasının sərhədlərindən daha uzaqda, həm də səhiyyəsinin səviyyəsi olduqca aşağı səviyyədə olan bir ölkədə xidmətdədir".

**Rusiyanın Azərbaycana səfir təyin etməməsi məsələsinə gəldikdə isə E.Mirzəbəyli qeyd etdi ki, bunu iki ölkə arasındakı diplomatik problem kimi dəyərləndirmir:** "Rusiyanın Azərbaycandakı səfirliyi fəaliyyətini əvvəlki qaydada davam etdirir. Sadəcə, səfirin funksiyasını müvəqqəti işlər vəkili Oleq Muraşev yerinə yetirir. Oxşar hadisə 1999-2000-ci illərdə də baş verib. Təxminən 2 il ərzində Rusiyanın Azərbaycandakı səfiri vəzifəni müvəqqəti işlər vəkili statusu ilə Aleksandr Prişepov əvəz edib. Nə qədər əlaqəli olub-olmadığını deyə bilmərəm, amma qeyd etmək istəyirəm ki, Bakı-Tiflis-Ceyhan layihəsi ilə bağlı ən aktiv proseslər məhz 1999-2000-ci illərdə cərəyan edib. Layihə ilə bağlı bəyannamə 1998-ci ilin oktyabrında Ankarada imzalanıb. Bəyannamədən qısa bir müddət sonra Rusiyanın Azərbaycandakı səfiri Aleksandr Bloxin geri çağırılıb və onu, daha öncə qeyd etdiyim kimi, müvəqqəti işlər vəkili Aleksandr Prişepov əvəzləyib". **Politoloqun fikrincə, mümkündür ki, bu addım Rusiyanın Azərbaycandakı neft strategiyasının iflasa uğraması ilə bağlı olub:** "Nəzərə alsaq ki, TANAP və TAP layihələri də həlledici mərhələyə qədəm qoyur və Rusiyanın öz nüfuz müvəkkilləri vasitəsilə bu layihələri əngəlləmək siyasəti özünü doğrultmayıb. Ola bilsin ki, Vladimir Doroxinin geri çağırılması da Moskvanın qaz strategiyasının iflasa uğraması ilə bağlıdır. Bütün hallarda mən yalnız öz ehtimallarımı dilə gətirirəm. Rusiyanın Ermənistandakı indiki səfiri isə 2013-cü ildə təyin olunub. Hazırda öz missiyasını davam etdirir. Əslində Rusiyanın Ermənistandakı səfiri daha çox canişin funksiyasını yerinə yetirir. Ermənistan onsuz da tamamilə Rusiyanın nəzarəti altındadır və bu ölkədəki yüksək rütbəli rus hərbçilərinin statusu belə, Sərkisyanın statusundan yüksəkdir. Bu baxımdan Rusiyanın Azərbaycana münasibətdə diplomatik müstəvidə sərgilədiyi münasibəti Ermənistanla müqayisə etmək istəməzdim".

❑ E.PAŞASOY,
❑ "Yeni Müsavat"

# Bakıda mühüm energetika toplantısı

## Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü iclası başladı; **prezident İlham Əliyev:** "2017-ci il layihənin icrasında mühüm il olub"

**Fevralın 15-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü iclası işə başlayıb. "APA-Economics"in məlumatına görə, tədbirdə Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç iştirak ediblər.**

Tədbirdə çıxış edən prezident İlham Əliyev vurğulayıb ki, Cənub Qaz Dəhlizi layihəsinin icrası şirkətlərin işə sadiqliyi nəticəsində mümkün olur. İclasda iştirak edən dövlətlərlə qurulan sıx əməkdaşlığın əhəmiyyətini vurğulayan dövlət başçısı bildirib ki, Cənub Qaz Dəhlizi layihəsinə dünyanın aparıcı maliyyə təsisatları öz töhfələrini verir. O vurğulayıb ki, irimiqyaslı layihələrin reallaşdırılması güclü və effektiv komandanın yaradıldığını nümayiş etdirir və beynəlxalq əməkdaşlığı daha da artırır.

"Cənub Qaz Dəhlizi Məşvərət Şurasının yaradılmasında məqsəd səylərimizi əlaqələndirməkdir" deyən prezident bildirib ki, bu layihənin həyata keçirilməsi Azərbaycanın strateji məqsədlərindən biridir.

Prezident diqqətə çatdırıb ki, artıq işlər həlledici mərhələyə daxil olub və 2017-ci il layihənin icrasında mühüm il olub.

Avropa Komissiyasının Enerji Birliyi üzrə vitse- prezidenti Maroş Şefçoviç çıxışında bildirib ki, Cənub Qaz Dəhlizinin Avropa üçün strateji əhəmiyyəti var: "Avropa tərəfindən Cənub Qaz Dəhlizinin strateji əhəmiyyətini vurğulamaq istərdim. Bu yaxınlarda Avropa İnvestisiya Bankı (AİB) tərəfindən bu layihənin maliyyələşdirilməsinə ayrılan vəsait həmin bankın tarixində tək bir layihəyə ayrılan ən yüksək məbləğ olub".




Xatırladaq ki, cari ilin fevralın 6-da AİB Avropaya qaz nəqlini nəzərdə tutan Trans-Adriatik Boru Kəmərinin (TAP) tikintisinə 1,5 milyard avro həcmində kreditin ayrılmasını təsdiq edib.

**İclasda İtaliyanın iqtisadi inkişaf nazirinin müavini İvan Skalfarotto da maraqlı fikirlər səsləndirib. O bildirib ki, TAP layihəsi Avropaya qaz tədarükü və enerji mənbələrinin diversifikasiyası baxımından mühüm əhəmiyyət kəsb edir və İtaliya hökuməti BMT-nin İqlim Dəyişməsi Konvensiyasında nəzərdə tutulan ekoloji məqsədlərə cavab verən bu layihəni tam dəstəkləyir:** ""İtaliya Azərbaycan və digər iştirakçı ölkələr tərəfindən yaradılan yüksək əməkdaşlıq çərçivəsində layihənin tam uğurla həyata keçirilməsində qərarlıdır".

Qeyd edək ki, Cənub Qaz Dəhlizi layihəsinin məqsədi "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsinin işlənməsi, bu zaman hasil ediləcək təbii qazın genişləndiriləcək Cənubi Qafqaz Qaz Boru Kəməri və yeni tikiləcək TANAP və TAP qaz boru kəmərləri vasitəsilə Türkiyə və Cənubi Avropaya ixracını təmin etməkdir.

Bəs görəsən, Cənub Qaz Dəhlizi layihəsindən gələcəkdə Azərbaycan nə qədər gəlir götürəcək? Bu layihə kommersiya baxımından özünü doğruldacaqmı?

**"Yeni Müsavat"ın suallarını cavablandıran ADA Universitetinin Xəzər Enerji və Ətraf Mühit Mərkəzinin direktoru Elnur Soltanov bildirdi ki, gəlirləri "Azəri-Çıraq-Günəşli" layihəsi ilə müqayisə ediləcək qədər olmasa da, Cənub Qaz Dəhlizi layihəsi özünü doğruldacaq:** "Qaz heç vaxt neft qədər gəlir gətirmir, bu bilinən bir gerçəklikdir. 1994-cü ildən 2018-ci ilə qədər bütün "Azəri-Çıraq-Günəşli" layihəsinə 40 milyard dollardan az kapital investisiya edilib. Ancaq oradan Azərbaycanın gəliri təqribən 130 milyard dollardır. Amma "Şahdəniz 2" layihəsi başlamadan belə ora 40 milyard dollar yatırım qoyulmalıdır. Ona görə maliyyətcə daha bahalı layihədir. Qaz isə neft qədər gəlir gətirmədiyi üçün, bu layihənin kar marjı ümumi olaraq az olacaq, xərci isə daha çox olacaq. O səbəbdən "Şahdəniz 2" layihəsinin gətirəcəyi gəlir "Azəri-Çıraq-Günəşli" layihəsi ilə müqayisə edilə bilməz. Ancaq bu 40 milyard dolların heç də hamısı Azərbaycan tərəfindən qoyulmur. Bildiyiniz kimi, 4 fərqli konsorsium var və bu konsorsiumlarda 10-a qədər şirkət onun ətrafında fəaliyyət göstərir. O baxımdan xərclər bu şirkətlər arasında bölüşdürüləcək".

**İqtisadçı vurğuladı ki, Azərbaycanın burada qoyduğu vəsaiti çıxara bilməməsi kimi bir ehtimal yoxdur:** "Əlbəttə, söhbət təkcə qoyulan vəsaitin çıxarılmasından getmir, gəlir də olacaq, milyardlarla dollar əldə ediləcək. Ancaq yenə də bu neftdən daha yavaş bir proses olacaq və ümumi olaraq daha az olacaq. Azərbaycan şirkətləri də burada podratçılar olaraq qazanc əldə edəcəklər. Azərbaycan buradan qazandığı təcrübələri gələcəkdə başqa dünyamiqyaslı proyektlərdə istifadə edəcək. Ölkəmiz bu layihə çərçivəsində qazandığı dostluqları, istər Gürcüstanla, istər Türkiyə ilə, istərsə də Avropa Birliyinin enerji təhlükəsizliyində yol almaqla olsun, Avropada qazandığı müttəfiqlikləri özünün başqa milli maraqları mövzusunda divident olaraq istifadə edəcək. Bu baxımdan "Şahdəniz 2" layihəsi Azərbaycan üçün kifayət qədər uğurlu layihə hesab oluna bilər".

**Elnur Soltanovun sözlərinə görə, Cənub Qaz Dəhlizi layihəsinin Avropa üçün də əhəmiyyəti çox böyükdür:** "Avropanın istehlak etdiyi təbii qazın önəmli hissəsi iki ölkənin monopoliyasındadır. Əlbəttə, Cənub Qaz Dəhlizi Azərbaycan üçün siyasi bir layihə deyil, tamamən iqtisadi layihədir. Bizim heç bir şəkildə siyasətlə işimiz yoxdur. Ancaq bu layihə Avropanın enerji təhlükəsizliyi arxitekturasında bir inciyə çevriləcək. Avropa üçün strateji əhəmiyyəti heç bir halda kiçildilə biləcək bir layihə deyil".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Xarici borcumuz artıb, amma kritik həddə deyil

## Ekspert: "İnkişaf etmiş ölkələrin bir çoxunda xarici dövlət borcu ilə bağlı vəziyyət Azərbaycandan qat-qat pisdir"

**Ötən il Azərbaycanda adambaşına düşən xarici dövlət borcu hər gün 1 manat 17 qəpik artıb. Maliyyə Nazirliyinin açıqladığı məlumata görə, bu ilin 1 yanvarına Azərbaycanın xarici dövlət borcu 9 milyard 398,3 milyon ABŞ dolları və ya 15 milyard 978,1 milyon manat olub. Bu, adambaşına 950 dollar, yaxud 1615 manat deməkdir. Ötən il xarici borcun həcmi adambaşına 705 dollar və ya 1198 manat olub. Beləliklə, ötən il hər birimizin borcu gündə 1 manat 17 qəpik artıb.**

**İqtisadçı-ekspert Samir Əliyevin** dediyinə görə, ötən il xarici borcumuz 36 faiz artıb: "Belə bir artım indiyədək müşahidə olunmamışdı. Bu, əsasən Beynəlxalq Bankın xarici kreditorlar qarşısındakı 3,3 milyard dollarlıq borc öhdəliyini dövlətin öz üzərinə götürməsi nəticəsində meydana çıxıb. Həmçinin bir sıra dövlət şirkətləri xaricdən dövlət zəmanəti ilə kreditlər cəlb ediblər".




**Ekspert bildirir ki, Azərbaycanın xarici dövlət borcu ÜDM-ə nisbətdə dünyada qəbul olunmuş kritik həddən xeyli aşağıdır:** "Avropa Birliyinin 1992-ci il Maastrixt razılaşmasına görə, xarici borc ÜDM-in 60 faizindən yuxarı olduqda təhlükəli səviyyə hesab olunur. Azərbaycanda isə bu göstərici 23 faizə yaxındır. Lakin nəzərə almaq lazımdır ki, bizdə açıqlanan sırf dövlət borcudur. Amma dünyada xarici borclar hesablanarkən həm dövlətin, həm də özəl sektorun borcları nəzərə alınır. Məsələn, Azərbaycanda təkcə SOCAR-ın xarici borcu dövlətin borcuna bərabər həcmdədir. Bundan əlavə, bir sıra dövlət şirkətlərinin dövlət zəmanəti olmadan aldıqları borclar var, özəl şirkətlərin, bankların xaricdən cəlb etdikləri kreditlər var. Azərbaycanda bunların uçotu aparılsa da, ümumi mənzərə ictimaiyyətə açıqlanmır. Əminəm ki, bütün qeyd olunan borclar nəzərə alınarsa, indiki rəqəm azı 2 dəfə yüksək olar, borcların ÜDM-dəki payı da 60 faiz həddini də ötüb keçər. Yəni əslində biz xarici borcun həcminə görə təhlükə xəttini keçmişik".

**İqtisadçı deyir ki, Dünya Bankının hesablamalarına görə, Azərbaycanın xarici borcu 14 milyard dollar təşkil edir. Daha 1 milyard dollar isə özəl sektorun borcu hesablanır:** "İnkişaf etmiş ölkələrin bir çoxunda xarici dövlət borcu ilə bağlı vəziyyət Azərbaycandan qat-qat pisdir. Məsələn, ABŞ dövlət borcu elə ölkənin ÜDM-nə bərabərdir. Böyük Britaniya və Fransanın borcu ÜDM-in 200-300 faizi həcmindədir. Almaniyada borc ÜDM-in 150 faizinə, Niderlandda 500 faizinə bərabərdir. Bu halda sual yaranır ki, o ölkələr niyə təhlükəli situasiyaya düşmürlər? Bu, onunla bağlıdır ki, onların iqtisadiyyatı yüksək inkişaf edib, ən yüksək kredit reytinqlərinə malikdirlər. Azərbaycan kimi ölkələrdə isə borcun artması onların reytinqinin pisləşməsinə gətirib çıxarır. Bu da iqtisadiyyatın strukturu ilə bağlıdır. Bizdə Neft Fondunun olması kredit reytinqinin düşməsinin qarşısını alır, həm də yeni borclanmalara imkan yaradır".

**2018-ci ilin büdcəsinin dövlət borcuna xidmət xərcləri 10,8 faiz - təxminən 2,2 milyard manatdan yuxarı təşkil edir:** "Bu isə o deməkdir ki, xərclənən hər 10 manatın 1 manatdan çoxunu borc qaytarmağa sərf edəcəyik. Büdcənin ikinci ən böyük xərc maddəsidir. Bu, çox böyük rəqəmdir. Bu il dövlət borcuna xidmət xərclərinin 613 milyon manatı faiz borcunun ödənməsinə yönəldiləcək. 1,7 milyard manata yaxın vəsait isə bilavasitə əsas borcun qaytarılmasına sərf olunacaq.

Bizim borclanmaya getmək limitimiz var. Amma nəzərə almaq lazımdır ki, zaman keçdikcə bizim neftimiz azalacaq, ondan gələn gəlirlər də azalacaq. Yaxın 4-5 ildə neftin qiyməti dumanlı görünür, onun indikindən xeyli aşağı olacağı gözlənilir. Bu şəraitdə gəlirimizin azalması, qaytarılacaq borcumuzun isə çoxalması bizi ciddi problemlərlə üz-üzə qoya bilər. Buna görə də dövlət zəmanəti ilə alınan kreditlərin şəffaf və təyinatı üzrə, həm də səmərəli xərclənməsi təmin olunmalı, eyni zamanda borclanma məsələsinə konservativ yanaşılmalıdır".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 37 (6926) 16 fevral 2018



# Ağlama, Mari

Zamin HACI
zaminhaci@gmail.com

**Bir qrup gənc yazıçı Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri Anar müəllimin kitablarını yandırmaq istəyirmiş. Doğrusu, mən bilmirəm bu tiplər kimlərdir, niyə yandırmaq istəyirlər, etirazları nəyədir, heç maraqlanmaq da fikrim yoxdur. Çünki AYB ətrafında tarixən, həmişə bir sürü vələdüzna gənc şair-mairlər, cızmaqaraçı yazıçı qırıntıları dolaşmışdır, onlar Anar müəllimin dövlət büdcəsindən ovladığı antilopları didişdirməyə, prezident təqaüdü, yazıçıların poliklinikasında pulsuz diş ağardılması, 4-cü mərtəbədəki kafedə yüz qram araq və sairə güzəştlər əldə etməyə meylli olmuşlar. Haçan qarınları doyub, başlayıblar AYB-yə şıllaq atmağa. Bu mənada adamın hətta Anar müəllimə hərdən yazığı gəlir. Onun çörəyinin duzu, qəlyanının külü, qələminin mürəkkəbi yoxdur.**

Uzun sözün qısası, indi Anar müəllimin kitablarını yandırmaq istəyənlər də şeytan bilir *(AYB yarandığı gündən Allahın yurisdiksiyası altında deyildir - Z.H.)* nə umurlar, kimdən küsüblər. Heç diqqət verməzdik, ancaq Anar müəllimin bu məsələyə açıqlamasının indiki siyasi şəraitə uyğun olmadığı qənaətindəyəm. Sitat: "Bu, tərbiyəsizlikdir. Yandırsınlar, bununla nəyə nail olacaqlar? Faşistlər də zamanında kitabları yandırırdı, sonu isə bəlli oldu".

Yəni Anar müəllimin sözündən belə çıxır ki, indi bizim çiçəklənən, dünyaya örnək olan lider respublikamızda faşistlər, yaxud onların bənzərləri vardır. Hm. Bizə lazımdırmı o cür nüfuzlu, milyardlarla oxucusu və beş-altı nəfər yandırıcısı olan dahi şəxsiyyətin ağzından belə siyasi təxribat çıxsın, özü də prezident seçkisi ərəfəsində? Heç AYB-nin üzvü və Milli Şuranın sədri Cəmil müəllim bu cür kəskin müxalifətçi bəyanatlara üz tutmur, doğru da edir. Bizdə faşistlər heç zaman fəaliyyət göstərə bilməzlər. Nəinki kitab yandırsınlar. *(Sözgəlişi, bizdə kitab çapı və satışında azad rəqabət şəraiti yaradılmışdır, Nigar Köçərli də sözlərimizi təsdiqləyər, ancaq bu ayrı mövzudur).* Hamı, bütün dünya ictimaiyyəti bilir ki, faşistlər bu dəqiqə yeganə olaraq Ermənistanda məskunlaşıbdır. Uşaqları öldürürlər, evləri yandırır, mədəniyyət abidələrini uçururlar. Bax, əgər Ermənistanda Anar müəllimin kitabları yandırılsa biz bunu başa düşərdik. Yeri gəlmişkən, görəsən niyə yandırmırlar? Bunun özü də düşündürücü faktdır. Bir ara hətta AYB-nin altında "Şaumyan" kafesi açılmışdı. Ancaq temadan uzaqlaşmayaq.

Yuxarıda qeyd elədiyim kimi, hazırda prezident seçkisi öncəsidir. Lakin AYB kimi dəstəklədiyini açıqlamır. Biz jurnalistlər, Mətbuat Şurası, Allahşükür müəllim açıqlama vermişdir, AYB isə susur. Bəlkə Anar müəllim Tural Abbaslının prezident olmasını istəyir? Açıq demək lazımdır. Mövqeyini ortaya qoymaq vaxtıdır. İdarə həmişə belə taleyüklü anlarda süründürməçilik edir, opportunizmə yuvarlanır, heliofobiyaya dığırlanır, bəzənsə ablyutofob kimi özünü göstərir. O boyda Formula-1 yarışlarına AYB-nin orqanı "Ədəbiyyat və incənəsət" qəzetində 1 kuplet şeir də həsr edilməyibdir. Adam əsəbləşir. O kitab yandırmaq istəyən gənclərə haqq qazandırırsan. Az qala. Yeri gəlmişkən, Anar müəllimin son bezsiller əsərlərindən olan "Qara qoçun ağ əti" romanına ön sözü bilirsinizmi kim yazıbdır? Elə həmin Milli Şura sədri Cəmil müəllim! Bəli. İnandırıcı olmasa da faktdır. İndi bu "Azərbaycanda faşistlər at oynadır" açıqlamasının mətnini də kim bilir, bəlkə Cəmil müəllim Anar müəllimin masasına ötürübdür?

Yazını isə vaxtilə faşistlərin kitablarını yandırdığı alman yazıçısı Bertold Brextin "Ağlama, Mari" şeirindən bir parça ilə bitirirəm:

***Onlar yenə böyük zamanlardan dəm vurur. Ağlama, Mari.***
***Dükançı borclarımızı dəftərə yazır.***
***Onlar yenə şərəfdən danışır.***
***Ağlama, Mari.***
***Şkafda bazara çıxartmağa heç nə qalmadı.***

Mən də qərara gəldim Brextin atasını belə yandırım.

# Kremlin "danışan dili"ndən Azərbaycana böyük saygısızlıq

**"Rusiyada heç vaxt anti-erməni əhval-ruhiyyə olmayıb". Bunu Rusiya Dumasında təşkil edilən "Vmeste" Rusiya-Ermənistan sərgisində çıxışı zamanı Liberal Demokrat Partiyasının sədri, prezidentliyə namizəd Vladimir Jirinovski söyləyib (axar.az ). Siyasi kloundan daha çox, Kremlin "danışan dil"lərindən sayılan Jirinovski Dağlıq Qarabağ ixtilafından da danışıb və... ənənəsinə sadiq qalıb.**



# Prezidentliyə iddiaçıdan anti-Azərbaycan bəyanatı - Bakıya şimaldan təhdid

Qarabağ konfliktinin həllini yalnız Rusiyanın tərkibində mümkün sayan Jirinovskil tək deyil və nəyə işarə vurur? Moskvanın ərzaq dükanlarında separatçı bölgənin qanunsuz məhsullarının "Qarabağ" adı ilə satışı və reklamını kim himayə edir? - faktlar...

"Qarabağ konfliktinin həlli onun Rusiyanın tərkibinə daxil olması ola bilər", - deyə o bildirib. Sitat: "Lakin Qarabağ Rusiyadan çox uzaqda yerləşir. Ermənistan ölkədə Rusiya hərbçilərinin sayını artırmalıdır və hər zaman şimala - Moskva və Kremlə baxmalıdır. Moskva ermənilərı istənilən zaman qoruyur. Cənub istiqaməti Rusiya üçün prioritetdir. Ermənistan bizim üçün vacib geostrateji nöqtədir. Ermənistan öz düşmənləri ilə hər zaman bacarıb, amma məhz Rusiya erməni dövlətinin güclənməsinə və inkişaf etməsinə yardım edib. Bizə qədər Ermənistanı hissələrə parçalanmışdı. Ona görə də Ermənistan dövlətinin siyasi xəritədə mövcudluğu Rusiyanın xidmətidir. Ermənistan hər zaman dəstəyə görə Rusiyaya minnətdar olacaq".

*****

Prezidentliyin elə 3-cü günü Rusiya ordusunu Kiyevə yeridəcəyini vəd edən V.Jirinovskinin Qarabağ və Ermənistanla bağlı son söylədikləri əslində təzə deyil. Buna qədər o, bir neçə dəfə bənzər çıxışlar edib. Amma bu dəfə həm də Rusiya prezidentliyinə iddialı qismində gündəmə gəlməklə diqqət çəkir.

Təbii ki, onun sözlərini tam ciddiyə almamaq yanlış olar. Çünki adam hər necə olmasa, Azərbaycanla, Ermənistanla bağlı Kremldə hökm sürən gerçək ovqatı ifadə edir və müəyyən mənada hətta 18 mart seçkindən sonra Moskvanın postsovet məkanı ilə bağlı yürüdəcəyi yeni xarici siyasətin, Kremlin məlum Avrasiya layihələri ilə bağlı gözlənilən sərt ritorikasının bəzi anonslarını verir. Təəssüf ki, nə Kremldəki gerçək ovqat, nə də bütövlükdə gözlənilən yeni ritorika və xarici siyasət Azərbaycanın xeyrinə deyil.

Yəni Jirinovski əslində bir çox şeyləri düz söyləyir. Söhbət ilk növbədə özünü ədalətli vasitəçi qismində bizə sırımaq istəyən Rusiyanın işğalçı Ermənistana hərtərəfli himayə və qayğısını, daha dəqiq, onun mövcudluğunun əsas qarantı olmasını, lap dəqiqi, Ermənistanla işğal ortağı olmasını bu şəkildə dilə gətirməkdən gedir.

Məgər bunu bir daha qeyd etməyə lüzum varmı ki, dünyanın siyasi xəritəsində "Ermənistan" adlı psevdo-dövlətin varlığı məhz erməni işğalçıları və separatçılarının əsas sponsoru olan Moskvanın hesabınadır? Yox. Elə ona görə Jirinovski deyir ki, "Ermənistan öz ərazisində Rusiya hərbçilərinin sayını artırmalıdır və hər zaman şimala - Moskva və Kremlə baxmalıdır".

Aydın məsələdir ki, özünü rəsmən 2047-ci ilədək Rusiyanın icarəsinə vermiş Ermənistan həmişə şimala - Kremlə baxmalıdır. Havayı "pendir" *(oxu: Ermənistan adında "dövlət")* yalnız tələdə olur. Odur ki, erməni xüsusən də son 30 ildə Moskvaya ilbəil daha da ağırlaşan bədəl ödəyir. Hələ daha neçə il ödəyəcək, bəlli deyil. Özləri bilər, can onların, cəhənnəm - Tanrının...

*****

Bizi isə ən çox ilgiləndirən yarımyəhudi LDPR sədrinin yuxarıdakı sitatla Azərbaycan dövlətinə qarşı yol verdiyi saygısızlıq, faktiki təhdiddir. "Qarabağ konfliktinin həlli Rusiya tərkibində mümkündür" sözlərinin başqa anlamı ola bilməz. Təəssüf ki, bu məsələdə o, Rusiyanı təmsil edən tək siyasətçi deyil.

Məsələn, ötən il Rusiya XİN başçısı, yarım erməni-Sergey Lavrov demişdi ki, Qarabağda hərbi əməliyyatlar *(oxu: antiterror əməliyyatı)* Azərbaycanın daxili məsələsi deyil. Yəni ki, "işğalçı və separatçı erməninin başını əzməyə sizə imkan vermərik" məntiqi.

**Ümumiyyətlə, indiyədək nəinki Lavrov və Jirinovski kimilərin, hətta heç prezident Vladimir Putinin dilindən də eşitməmişik, desin ki: "Rusiya Azərbaycan suverenliyi və ərazi bütövlüyün dəstəkləyir, Dağlıq Qarabağ konflikti Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır". Belə bir şey eşidən, bilən varsa, yadımıza salsın.**

Başqa bir fakt: Moskvada - Kremlin qulağının dibində illərdir qondarma "DQR"in nümayəndəliyi fəaliyyət göstərir. Suriyada neçə İŞİD-çinin olduğunu adbaad bilən rəsmi Kreml, onun xəfiyyəsi, Putinin özü heç ola bilməz ki, bundan bixəbər olsun - üstəlik, həmin separatçı yuvasının kimin patronajlığı altında mövcudluğu da sirr deyilsə. Bu, əlbəttə ki, ilk növbədə Lavrovdur. Söz düşmüşkən, keçən il, ÜAK ləğv edilən vaxt Sergey Lavrova prezidentin sözçüsü Dmitri Peskov Moskva restoranlarının birində Rusiyadakı erməni diasporunun lideri Ara Abramyanın 60 ilik yubiley törəninə qatılmış, orada Qarabağdakı separatçı rejimin başçısı Bako Saakyanla da qədəh toqquşdurmuşdular.

*****

Bu da hamısı deyil. Elə Jirinovski yuxarıdakı açıqlamanı verən gün məlum olub ki, Moskvanın Domodedovo hava limanında işğal altındakı ərazimizdə istehsal olunan "Qarabağ" adında spirtli içkilər satılır. "Yeni Müsavat" xəbər verir ki, bu barədə rusdilli vesti.az nəşrinə Rusiya paytaxtında yaşayan bir azərbaycanlı vətəndaş deyib. Sual yaranır: erməni separatçılarının məhsulunu reklam eləmək kimə lazımdır? Demək, hər halda, məqsəd var, özü də siyasidir.

Əlavə edək ki, Rusiyanın ticarət şəbəkəsində rusiyalılara təkcə "arsax", "Qarabağ" brendi ilə qanunsuz məhsullar təklif edilmir. Həm də vaxtaşırı ölkənin ən iri şəhərlərində separatçıların iştirakı ilə tədbirlər keçirilir, həmin tədbirlərdə də "DQR bayrağı" adına əski parçası asılır, digər separatçı simvollar reklam olunur. Rusiyanın aparıcı KİV-lərində ermənilərin kök salması da öz yerində...

❑ **"Yeni Müsavat"ın siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 37 (6926) 16 fevral 2018



# Rusiya silahına görə sanksiya-Bakı gözlənilməz situasiya ilə üzləşə bilər

## Qabil Hüseynli: “Növbə Rusiya ilə əlaqələri olan dövlətlərə gəlir”

**ABŞ-ın İrəvandakı səfirliyinin son bəyanatı Azərbaycan mediasının da diqqətini çəkib. Virtualaz.org xəbər verir ki, fevralın 14-də bəyanatla çıxış edən səfirlik bildirib ki, sanksiya siyahısına düşən Rusiya hərbi sənaye şirkətləri ilə sövdələşmələr bağlayan xarici şirkətlərə və hökumətlərə qarşı da sanksiyaların tətbiq edilməsi mümkündür. “Biz bir sıra ölkələrin hökumətlərini və özəl şirkətlərini xəbərdar etmişik ki, sanksiya siyahısına daxil edilən Rusiya şirkətləri ilə sövdələşmələrin bağlanması halında onlara qarşı da sanksiyaların tətbiq edilməsi mümkündür” - səfirliyin “Aykakan jamanax” qəzetində dərc edilmiş bəyanatında bildirilir.**

ABŞ-ın məhz Ermənistandakı səfirliyi üzərindən belə xəbərdarlıq yayması dərhal belə qənaət formalaşdırıb ki, mesaj daha çox İrəvana yönəlib. Çünki ötən ilin dekabrında Ermənistan Rusiyadan silah almaq üçün ikinci güzəştli kredit müqaviləsi *(100 milyon dollar)* imzalayıb. Rusiyadan silah alan ölkələrin, o cümlədən Azərbaycan və Ermənistanın ABŞ-ın sanksiyalarına məruz qala biləcəyi haqda ötən ay “Amerikanın səsi”nə müsahibəsində Amerikanın Xarici Siyasət Şurasının analitiki Stiven Blank da bildirmişdi. Analitik hesab edir ki, Rusiyadan fəal şəkildə silahlar alan Azərbaycan və Ermənistan “sürprizlərlə qarşılaşa bilər” və sanksiyaların hətta hökumətlərə qarşı tətbiqi də mümkündür.

Müstəqil ekspertlər bu bəyanatda verilən mesajların daha çox Ermənistana yönəldiyini qeyd etsələr də, Azərbaycan üçün də çox ciddi məsələ olduğunu bildirirlər. Çünki Azərbaycanın silah aldığı ölkələr sırasında Rusiya ön sıralarda gedir. Rəsmi Bakının bu məsələdə son dərəcə ehtiyatlı olmasının vacibliyi vurğulanır.

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, sanksiyalar ətrafında yaradılan mühit çox ciddidir:** “Belə hiss olunur ki, Amerika bu sanksiyaların hesabına onunla rəqabətdə olan, yaxud onun təqdim etdiyi yeni dünya düzəninə zidd gəlməyə çalışan dövlətləri sanksiyalar yolu ilə çıxılmaz vəziyyətə salmaq istəyir. Hələ ki hədəfdə Rusiya, İran və Şimalı Koreyadır. Özü də bu məsələlərə Amerika tərəfi çox prinsipal yanaşır. Rusiyaya qarşı sanksiyalar get-gedə dərinləşdirilir, bərkidilir. Sanksiyaların ikinci dalğasından sonra artıq üçüncü dalğası Konqresə üç konqresmen tərəfindən təqdim olunub. Rusiyada seçkilərə qədər yeni sanksiyaların tətbiq edilməsi kimi bir vəziyyət ortada var. Əgər Konqres və Senatın çoxluğu tərəfindən bəyənilərsə, üçüncü sanksiya dalğası da Rusiyanı bürüyə bilər. Sanksiyalar məsələsində Avropa da Amerikanı müdafiə edir və həmin sanksiyalara qoşulur. Amerikanın bütün müttəfiqləri bu məsələdə eyni mövqedədirlər. Növbə indi də Rusiya ilə əlaqələri olan dövlətlərə gəlir. Azərbaycan Rusiya ilə qonşu dövlətdir və yaxın münasibətləri var. Rəsmi Bakı hər vasitə ilə çalışır ki, bu münasibətlərin səviyyəsini qaldırsın. Bu sahədə üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir. Rusiya tərəfdən adekvat reaksiya olmasa da Rusiyanın bəzi sahələrdə münasibətlərini qənaətbəxş hesab etmək olar. Amerikanın İrəvandakı səfirliyinin sanksiyalarla bağlı bu çıxışı çox ciddidir. Zənnimcə, bu ilk növbədə, İrəvanın özünə yönəlib. Çünki Ermənistan 90%-dən çox Rusiyadan asılı olan bir ölkədir. Erməni diasporasının yardımlarını çıxsaq, Ermənistanın zəif iqtisadiyyatının və pul dövriyyəsinin 90%-ə qədəri Rusiyadan gələn pullardır. Ən qorxulusu odur ki, Rusiyanın formal şəkildə, amma əslində heç bir pul vahidi almadan indiyə qədər Ermənistana hədiyyə etdiyi 5 milyard dəyərində silah-sursatdır. Azərbaycan, doğrudur, Rusiyadan silah tədarükü edən dövlətlərdən biridir. Azərbaycan bir neçə müqavilə ilə Rusiyadan demək olar ki, lazım olan silah-sursatın hamısını alıb. Yeni müqavilələrin imzalanması barədə hələ ki söz-söhbətlər yoxdur. Azərbaycanın çəkinəcəyi heç bir hüquqi vəziyyət yoxdur. Çünki ölkəmiz ilk növbədə, özü-özünü təmin edən dövlətdir. Özünün silahqayırma sənayesi inkişaf etməkdədir. Digər tərəfdən, Azərbaycan Pakistan, İsrail, Türkiyə kimi dövlətlərdən də silah alır. Artıq ordunun təchizatının 90%-ni yerli Müdafiə Sənayesi Nazirliyi təmin edir. Bu baxımdan Azərbaycanın sanksiya rejimini pozmaq və buna zidd addım atmaq niyyəti yoxdur. Yəqin ki, gələcəkdə də belə addımlar atılmayacaq. Amma Ermənistan uzun müddətdir sanksiyalar rejimini pozur və pozmaqda da davam edir. Rusiyasız Ermənistan bir dövlət kimi qısa müddətdə çökə bilər. Ermənistanın bundan sonra da Rusiya ilə əlaqələri həmin qaydada qalacaq. Amerikanın İrəvandakı səfirinin belə bir bəyanatla çıxış etməsi çox başa düşüləndir. Bu, birbaşa Ermənistana yönəlmiş xəbərdarlıqdır. Ermənistanın Rusiyadan asılılığını dayandırmaq fikri yoxdur, dayandıra da bilməz. Bu baxımdan amerikalı səfir nişangaha Ermənistanı gətirir. Azərbaycan və Gürcüstanın hədəfə gətirilməsi kimi heç bir addım yoxdur”.



❑ **Cavanşir ABBASLI,**
❑ **“Yeni Müsavat”**



## Elmar Məmmədyarov Münhen Təhlükəsizlik Konfransında iştirak edəcək

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyaya işgüzar səfər edəcək.**

Bu barədə virtualaz.org-a Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Səfər çərçivəsində Münhen Təhlükəsizlik Konfransında E.Məmmmədyarovun çıxışı və bir sıra ikitərəfli görüşləri nəzərdə tutulub.

Qeyd edək ki, konfrans 16-17 fevral tarixlərində keçiriləcək.

# Əbədi problem - korrupsiya...



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Saakaşvili deyib ki, Ukraynada korrupsiyanın kökünü yalnız Avropa Birliyinin sayəsində kəsmək olar. O əmindir ki, qurum korrupsionerlərlə bağlı yeni “Maqnitski siyahısı” hazırlasa, konkret şəxslərə qarşı sanksiyalar tətbiq eləsə, Ukraynada islahatlar sürətlənər. “Korrupsiyaya bulaşmış oliqarxlarla oyunu dayandırmaq lazımdır, yoxsa insanların Qərbə inamı itir” - eks-prezident söyləyib.**

Qərbə, yəni ABŞ-a, Avropa Birliyinə inam... O inam ki, xüsusən də son illər Yaxın Şərqdə və Türkiyə ətrafında gedən dramatik proseslər fonunda, qardaş ölkənin on illərlə Avropa İttifaqının qapısı ağzında saxlanması üzündən də xeyli sarsılıb.

Amma Saakaşvillin məntiqini anlamaq çətin deyil. “İnsan zülmə tabedir”. Öləri bəndə adətən intuitiv olaraq qorxu hissi altında hərəkət edir, planlar qurur. Bu qorxudan doğan təlaş, baş üstdə daim asılı qalan “Domokl qılıncı”, şəxsi təhlükəsizliyə, azad yaşamaq və hərəkət eləmək sərbəstliyinə təhlükə üstəgəl, sənə həbsxana qapısını nişan verirsə, onda bax, oliqarx-məmur papağını qabağına qoyub yaxşı-yaxşı fikirləşəcək.

“Korrupsiya hər yerdə var” deyirlər. Amma onunla mübarizə hər yerdə varmı? Yəni korrupsiyanın miqyası onunla mübarizəyə həmişə tərs mütənasib olaraq qalacaq. Təməl insan haqlarının oturuşmasına əsas əngəllərdən sayılan korrupsiyanın kökünü kəsmək isə bütün zamanlarda aktual olub. Ancaq axırına çıxmaq mümkün deyil deyirlər. Sanki əbədi bir problem. Çünki “insan çiy süd əmib”.

Ancaq korrupsiyanın miqyasını milli təhlükəsizliyi təhdid etməyəcək səviyyəyə endirmək tam mümkündür. Bu isə birbaşa hakim elitaya, iqtidardakı qüvvənin iradəsinə bağlı məsələdir. Öncə hakimiyyət korrupsiyaya müharibə elan etməli, ardınca bu müharibəyə toplum, QHT-lər, şəffaflığı təmin edən digər vətəndaş institutları, media qoşulmalıdır. Əks halda, nəticə sıfırın yanında olacaq.

Bu üzdən AB-nin sanksiyaları, yeni “Maqnitski siyahısı” hələ çıxış yolu sayılmaz. Rusiya oliqarxlarına qarşı belə siyahı çoxdan mövcuddur. Son illər rəsmi Moskvaya yeni-yeni sanksiyalar tətbiq olunub, hətta Putinin ən yaxın ətrafına daxil olan şəxslər “qara siyahıya” - “Kreml hesabatı”na salınıb. Lakin gözlənilən nəticə hələ ki yoxdur.

Nədəni odur ki, Putinin özü ölkədə korrupsiyanın kökünü kəsməkdə maraqlı deyil. Ola bilsin orta perspektivdə sanksiyalar nəticə versin, ancaq o zamana kimi də iş-işdən keçir, “altda qalanın” - xalqın canı çıxır. Ukrayna da istisna deyil. Maddi ehtiyacı olmayan milyarder-prezident Pyotr Poroşenko istəsəydi, 4 ildə korrupsiyanın kökünü kəsə bilməsə də, onun “onurğa sütununu” qırardı. Saakaşvilinin özü Gürcüstanda total korrupsiyanı necə minimuma endirdi, hamı bilir.

Qərəz, “Yüz mamaça olsa da, güc doğana düşdüyü” kimi, bu məsələdə də əsas yük 1-ci şəxsin üzərindədir. Bütün tələb-suallar, hətta məhdudiyyətlər onun ətrafı ilə yanaşı, özünə də ünvanlansa, daha səmərəli olar. Sözsüz ki, fəal toplum faktoru da öz yerində. Yəni sinxronluq. O mənada ki, heç bir xalqa kənardan demokratiya, şəffaf idarəçilik sistemi sırımaq, “sən o cür yox, bu cür yaşamalısan” fəlsəfəsini aşılamaq caiz deyil. Bu, su çıxmayan quyuya yuxarıdan su tökmək kimi səmərəsiz işdir.

Qərb, onun əsas dövləti ABŞ Əfqanıstana, Liviyaya, Tunisə, Misirə zorla demokratiya gətirdimi? Suriyaya necə, gətirə bilirmi? Xeyr. Əksinə, az qala, regiondakı ən böyük müttəfiqi və strateji tərəfdaşı Türkiyəni itirmək üzrədir. Birinci səbəb budur ki, “Şərq incə məsələdir”. İkinci səbəb - Qərbin, Amerikanın əsas hədəf-niyyəti ilə bağlıdır. Niyyət də bəlli: təməl insan haqlarını bərqərar eləməkdən qat-qat çox, demokratiya pərdəsi altında bölgədə geosiyasi maraqları, böyük enerji qaynaqlarına nəzarəti bərqərar eləmək. Bunun özü də əslində korrupsiyanın bir forması, təzahürüdür.

Paradoks da ondadır ki, ABŞ, Avropa “Şərqdə, Rusiyada, Ukraynada korrupsiya var” deyır. Amma özləri ərəb ölkələrində, İraqda, Suriyada geosiyasi korrupsiyanın içindədirlər. Bir çox diktatura rejimləri, hətta terror qrupları ilə müttəfiqdirlər - deyilən səbəbə. Bir terrorçu təşkilatla (İSİD) mübarizə aparmaq üçün başqa terrorçu hörgütlə (PKK/PYD/YPG) ittifaq qurmağın ayrı hansı adı ola bilər ki...

Sözümüzün canı odur ki, kimisə ittiham etməkdən öncə, yaxud ədalətli, qərəzsiz vasitəçiliyə iddia eləmək üçün əvvəlcə gərək özün ittiham obyekti olmayasan. Saakaşvili demiş, korrupsionerlə oyun oynamayasan, öz gözündəki tiri görməyi və götürməyi bacarasan.

YENİ MÜSAVAT
N 37 (6926) 16 fevral 2018

# "Fermerlər nə qazanırlar ki, ondan vergi də versinlər..."

## Əli Məsimli: "Monopoliyanın qarşısı alınmasa, aqrar islahatların səmərəliliyinə mənfi təsiri olacaq"



**Azərbaycan iqtisadiyyatının prioritet seçilmiş iki əsas istiqamətindən biri olan aqrar sektor gündəmin də əsas mövzularından biridir. Ölkə əhalisinin yarıya qədərinin məşğul olduğu bu sahədə son illərdə xeyli tədbirlər həyata keçirilsə də, problemlərin aradan qaldırıldığını söyləmək mümkün deyil. Aqrar sektorun vəziyyəti, problemləri və inkişaf üçün zəruri olan tədbirlərlə bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, iqtisadçı-alim Əli Məsimli ilə söhbət etdik.**

***- Əli bəy, sizcə, hazırda Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olmağı nə qədər cəlbedici hesab etmək olar?***

- Aqrar sahənin hərtərəfli inkişafı- qeyri-neft sektorunun qalxınmasının, onun ixrac imkanlarının genişlənməsinin əsas istiqamətlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir. Bu sahənin inkişaf etdirilməsi həm də əhalinin işlə təminatının artırılması, işsizliyin və yoxsulluğun azaldılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Dövlət ölkədə aqrar sektorun davamlı inkişafı üçün dünyada özünü doğrultmuş iqtisadi mexanizmlərdən, stimullardan və güzəştlərdən istifadə edir. Bütün bunlar Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olmağı potensial nöqteyi nəzərdən cəlbedici edir. Realda isə bundan yalnız əlində maliyyə resursları olanlar yetərincə faydalana və müsbət nəticələr əldə edə bilirlər. Amma buna əks-təsir göstərən amillər də az deyil. Bu amillərdən biri budur ki, ölkənin kənd təsərrüfatı üçün yararlı olan torpaqlarından yetərincə səmərəli istifadə edilmir. Fermer təsərrüfatlarının əksəriyyətinin torpaqları yüksək nəticələr əldə olunması və geniş təkrar istehsal qurmaq üçün yetəri qədər deyil. Kənd təsərrüfatı ilə məşğul olanların xeyli hissəsinin gəlirləri aşağıdır, maddı və maliyyə resursları məhduddur və istehsalı genişləndirməyə imkan vermir. Ümumilikdə kənd təsərrüfatında əmək məhsuldarlığı aşağıdır. Bundan əlavə, son illər büdcə xətti ilə kənd təsərrüfatına investisiya tələbatı səviyyəsinə yaxın sərmayə qoyulmağa başlanılsa da, ondan istifadənin səmərəliliyi aşağıdır.

Ən ciddi problemlərdən biri monopolizmdir - monopoliya kənd təsərrüfatına da sirayət etməyə başlayıb. Azərbaycanda adambaşına 1,08 ha torpaq fondu, 0,6 ha yararlı torpaq sahəsi, 0,2 ha əkin sahəsi düşür. Bundan əlavə, ərazimizin 20 faizi işğal altındadı... Kənd təsərrüfatında istifadə edilən sahələrin xeyli hissəsi şoranlaşmaya, errozoyaya məruz qalıb. Son illərdə əllərində maliyyə resursları olanlar dövlət torpaq fondundan və kəndlilərdən torpaq alıb iri fermer təsərrüfatları yaradırlar. Həmin prosesin təsiri ilə əgər əvvəllər torpağın qiyməti 800-1000 manat idisə, indi məkanından, yerinin əlverişliliyindən və keyfiyyətindən asılı olaraq 1500- 2000 manata qalxıb. Bu iş düzgün qurulsa, orta perspektivdə bu sahədə 2 dəfə və ondan da çox artıma nail olmaq, ölkədə güclü aqrar-sənaye kompleksi yaratmaq, ərzaq bolluğuna nail olmaq və bu sahənin ixrac imkanlarını xeyli artırmaq olar.

***- Sizcə, bu gün Bakıdan kəndə dönmək üçün əsaslı səbəb olacaq səviyyədə stimullaşdırıcı tədbirlər həyata keçirilirmi?***

- Azərbaycanda kənd təsərrüfatı istehsalçıları torpaq vergisi istisna olmaqla, digər vergiləri ödəməkdən azad ediliblər. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarlara bu sahədə güzəştlərin verilməsi məqsədilə bəzi malların idxalı və ölkə daxilində satışı ƏDV-dən azad edilib. Kənd təsərrüfatında çalışan əhalı üçün mineral gübrələrin, pestisidlərin, texnoloji avadanlıqların, tinglərin, buğda toxumlarının, cins damazlıq heyvanların ölkəyə gətirilib istehsalçılara çatdırılmasında da güzəştlər tətbiq olunur. Kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan hüquqi şəxslər və fərdi sahibkarlar investisiya təşviqi sənədi əsasında əlavə dəyər vergisindən, əmlak və torpaq vergilərindən, o cümlədən həmin sənədi aldığı tarixdən əldə etdiyi mənfəətin 50 faizi məbləğində mənfəət vergilərindən 7 il müddətinə azaddır.

Kənd təsərrüfatında artım tendensiyasını saxlamaq üçün dövlət tərəfindən bu sahəyə yönələn subsidiya və güzəştli kredit siyasəti yürüdülür. 2018-cı ilin büdcəsində kənd təsərrüfatına 617 milyon manat vəsait ayrılıb. Kənd təsərrüfatına investisiya tələbatı səviyyəsində sərmayə qoyulsa, bu sahə ilə məşğul olanlara süni maneələr və müdaxilələr olmasa, kəndliyə nə istəyirsə istehsal etməyə, istehsal etdiyi məhsulu hara istəyirsə satmağa şərait yaradılsa, güzəştli kreditlərin əlçatanlığı təmin olunsa, kənd təsərrüfatı ilə məşğul olmaq birmənalı şəkildə cəlbedici olar və daha çox fayda verər.

***- Vergi güzəştlərindən söz düşmüşkən... Son günlər müzakirə obyektinə çevrilmiş məsələrdən biri də kənd təsərrüfatı sektorunda çalışanların vergiyə cəlb oluna bilməsi məsələsidir. Bu məsələyə münasibətiniz necədir?***

- Bilirsiniz ki, kənd təsərrüfatı ölkənin sosial-iqtisadi problemlərinin həllində, xüsusən də regionlarda yaşayan insanların məşğulluğunda müstəsna rol oynayır. Bununla belə, bu sahənin potensialından layiqincə istifadə olunmur. Hazırkı reallıqlar şəraitində kənd təsərrüfatı sektorunda məhsuldarlıq aşağıdır, xərclər, maya dəyəri yüksəkdir, bu sahədə istehsal olunan məhsulların əksəriyyəti yüksək rentabelli deyil. Kənd təsərrüfatı dövlət dəstəyinə böyük ehtiyacı olan spesifik sahədir. Fermerlərin xeyli hissəsi çəkdikləri böyük zəhmətin müqabilində nə qazanırlar ki, ondan vergi də versinlər... Əslində hazırkı reallıqlar şəraitində bu məsələ ətrafında diskussiyaya yer yoxdur. Fermerlərə vergi güzəştlərinin edilməsi dövlətin aqrar siyasətinin mühüm tərkib hissəsidir. Ona görə də kənd təsərrüfatı sektorunda çalışanlara, xüsusən də kiçik və orta sahibkarlar kimi fəaliyyət göstərən fermerlərə vergi güzəştlərinin tətbiqi davam etdirilməlidir.

***- Bu günlərdə məlum oldu ki, Türkiyədə heyvandarlığı inkişaf etdirmək üçün kəndə qayıdıb heyvan saxlayanlara 300 baş qoyun və xeyli əlavə dəstək verəcəklər. Bizdə necə, kənddə yaşayışı stimullaşdırmaq, əhalinin şəhərə axınının qarşısını almaq üçün daha hansı əlavə tədbirlərə ehtiyac var?***

- Aqrar sahədə qarşıda duran əsas məqsəd kənd təsərrüfatında əmək məhsuldarlığını yüksəltmək, istehsalın səmərəliliyini xarakterizə edən digər göstəriciləri yaxşılaşdırmaqla əhalini daxili istehsal hesabına kənd təsərrüfatı məhsulları ilə təminatını artırmaq, bu sahənin ixrac imkanlarından geniş istifadə etmək və onu əsas gəlirli sahələrdən birinə çevirməkdir. Həmin məqsədlərə nail olmaqdan ötrü optimal müddətdə bir sıra istiqamətlərdə sistemli tədbirlərin həyat keçirilməsi obyektiv zərurətə çevrilib. Bu istiqamətlərdən birincisi, Azərbaycanda güclü aqrar-sənaye komplekslərinin yaradılması üzrə üzunmüddətli strategiyanın və xüsusi dövlət proqramının, onun ayrı-ayrı komponentlərinin icrasının sürətləndirilməsinə yönəlik stimullaşdırıcı proqramların və tədbirlər paketinin hazırlanıb, optimal müddətdə həyat keçirilməsinin təmin edilməsi.

İkincisi, mövcud tədbirlər planlarında prioritetlərə yenidən baxılması, aqrar sahədə mülkiyyət münasibətlərindəki problemlərin aradan qaldırılması, kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəldilməsi, ixracın artırılması kimi məsələrin önə çıxarılması.

Üçüncüsü, ölkənin kənd təsərrüfatı üçün yararlı torpaqlarından istifadənin səmərəliliyinin artırılması istiqamətində zəruri tədbirlər görülməsi. Bu tədbirlər torpaqların münbitliyinin yaxşılaşdırılması, şoranlaşmış və eroziyaya uğramış torpaqların əkin dövriyyəsinə qaytarılmasının elmi əsaslarının hazırlanması və tətbiqinin sürətləndirilməsi; torpaqlardan səmərəli istifadə edilməsi üçün yerli şəraitə uyğun yüksək məhsuldarlı kənd təsərrüfatı məhsulları üzrə ixtisaslaşmanın stimullaşdırılması; torpaqların münbitliyinin və suvarılan torpaq sahələrinin artırılması istiqamətində işlərin genişləndirilməsi; eroziyaya uğramış, şoranlaşmış və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqların müəyyən edilməsi, xəritələşdirilməsi və onlardan səmərəli istifadə olunması istiqamətində zəruri tədbirlər görülməsi; meliorasiya tədbirlərinə ehtiyacı olan torpaqların müəyyən edilməsi, onların irimiqyaslı xəritələrinin hazırlanması və optimal müddətdə reallaşdırılması; çirklənmiş və deqradasiyaya uğramış torpaqların rekultivasiyası layihələrinin həyata keçirilməsi; istifadə olunmayan əkinə yararlı torpaqların əkin dövriyyəsinə cəlb edilməsinin stimullaşdırılmasıdır.

Dördüncüsü, meliorasiya və su təsərrüfatının inkişaf etdirilməsi istiqamətində görülən işlərin genişləndirilməsi.

Beşincisi, aqrar sahədə əmək məhsuldarlığının artırılmasına maliyyə dəstəyinin gücləndirilməsi.

Altıncısı, son illər Bakıda və digər şəhərlərdə iş yerlərini itirib rayona dönərək kəndlərdə qalıb işləmək istəyənlərə hərtərəfli dövlət dəstəyinin göstərilməsidir.

Yeddincisi, fermerlərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, kiçik, orta və iri təsərrüfatların fəaliyyətinin effektli kombinasiyasına nail olunması.

***- Kənddə qalmaq istəyənlərə dəstək deyərkən nələri nəzərdə tutursunuz?***

- Kəndə qayıdıb işləmək istəyən vətəndaşların uçotunun aparılması, istifadəsiz torpaqların bir hissəsinin onlara icarəyə verilməsi. Eyni zamanda Sahibkarlığa Milli Kömək Fondu və digər kanallarla onlara güzəştli kreditlərin, eləcə də girov tələb olunmadan əlverişli şərtlərlə mikrokreditlərin verilməsi. Kənd təsərrüfatı sahəsində yüksək nəticə göstərənlərə növbəti ildən başlayaraq torpaq sahələsinin genişləndirilməsi, cins mal-qara ilə təminat, qrantların verilməsi və digər stimullaşdırıcı tədbirlərin həyat keçirilməsi.

***- Azərbaycanda "Kənd təsərrüfatı kooperasiyası haqqında" qanun qəbul olunub. Amma kooperasiyaların, iri təsərrüfatların yaradılması prosesi ləng gedir. Bu sahədə hansı problemlər var?***

- Hazırda bir sıra iri təsərrüfatların yaradılması uğurla gedir. Bununla yanaşı, problemlər də var. Monopoliya öz resurslarından istifadə edərək dövlət torpaq fondundan xeyli torpaq götürür. Sonra görür ki, onun hamısını əkib-becərə bilmir, ya da ki, bunu istəmir. Əvvəllər həmin torpaqların hər hektarını birbaşa 80 manata icarəyə götürən fermer, indi dolayı icarə mexanizmi şəraitində 150 manat icarə haqqı ödəməyə məcbur olur. Hər hektara 90 manatlıq subsidiya da monopoliyaya çatır. Beləliklə, aqrar sahəyə soxulan yeni tip monopoliya heç bir zəhmət çəkmədən hər hektardan 240 manat qazanc götürməyə başlayır. Nəticələri dəqiq hesablanmadan bir sıra hallarda örüş torpaqları əkin altına verilir və sair... Bütün bunların nəticəsində əvvəllər normal çalışan fermerlər yeni icarə yükü şəraitində az rentabelli işləməyə başlayır. Nəticədə otun da, ətin də qiyməti qalxır. Tək qazanan isə monopoliya olur. Bunun qarşısı alınmasa, aqrar islahatların səmərəliliyinə mənfi təsiri olacaq.

Ona görə də belə sui-istifadə hallarının qarşısı alınmalı, süni maneələr aradan qaldırılmalı, kooperasiya əlaqələrinin genişləndirilməsi üçün əlavə təsirli tədbirlər görülməlidir. Bunlarla yanaşı, kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının genişləndirilməsi istiqamətində əlavə tədbirlərin həyata keçirilməsinə ehtiyac var. Həmin tədbirlərin optimal müddətdə və sistemli şəkildə həyata keçirilməsi ilə kənd təsərrüfatına sərmayə qoyuluşlarını artırar, aqrar sahənin potensialından səmərəli istfadə etmək və müasir texnologiyaların tətbiqi yolu ilə kənd təsərrüfatının intensiv inkişafına nail olmaqla az bir zaman ərzində ciddi sosial-iqtisadi effektlər götürülməsinə - ölkədə yerli istehsal hesabına tələbatı dolğun şəkildə ödənməsinə, ixrac potensialının artmasına və kənd əhalisinin güzəranının əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olmaq olar.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 37 (6926) 16 fevral 2018

# Məktəblərimiz necə mühafizə olunur?

## Ali təhsil ocaqlarında bu iş qənaətbəxş olsa da, orta məktəblərin bəzilərində hələ də mühafizə funksiyası təmizlik işlərinə baxanlara tapşırılıb...

**Çərşənbə günü ABŞ-ın Parkand şəhərindəki (Florida ştatı) məktəblərin birində silahlı insident baş verib. Hadisə nəticəsində 17 nəfər ölüb. Ölənlər arasında həm şagirdlər, həm də böyüklər var. Atəş açan 18 yaşlı Nikolas Kruz saxlanılıb. Bundan əvvəl o, daxili nizam-intizam qaydalarını pozduğuna görə məktəbdən xaric edilibmiş.**

Son zamanlar Bakıdakı orta məktəblərdə də müxtəlif xoşagəlməz hallar baş verir. Ötən günlərə nəzər salsaq orta məktəblərimizin adının hallandığı bir neçə cinayət tərkibli hadisələrin şahidi olarıq. 2009-cu ilin aprelində Azərbaycan Dövlət Neft Akademiyasında (ADNA) törədilən terror hadisəsindən sonra isə bəzi universitetlərimizdə də mühafizənin sıfır səviyyədə olduğu ortaya çıxdı.

Bəs hazırda təhsil ocaqlarımızın mühafizəsi hansı səviyyədədir? Suala cavab almaq üçün bir neçə universitet və orta məktəbdə olduq. Öyrəndik ki, ötən illərdən fərqli olaraq hazırda universitetlərdə mühafizə daha yaxşı səviyyədədir.

Bakı Dövlət Universitetini xüsusi mühafizə dəstəsi qoruyur. Belə ki, universitetin bütün korpuslarının girişində mühafizəçi dayanıb, içəri daxil olan tələbələrdən tələbə bileti, müəllimlərdən isə orada işlədiklərini təsdiqləyən sənəd istənilir. Xüsusilə də universitetin əsas binasının girişində mühafizə daha güclüdür. Hətta şübhə yaranarsa, içəri daxil olmaq istəyən şəxsin çantası da yoxlanılır. BDU-nun çöl qapılarda da mühafizə var. Onlar içəri daxil olan avtomobillərə nəzarət edirlər. Universitetdə çalışmayan şəxslərin avtomobilləri o zaman içəri buraxılır ki, həmin şəxsin yanına gəldiyi adam mühafizəyə bu haqda məlumat versin.

Ətrafda olan Azərbaycan Memarlıq və İnşaat Universiteti, eləcə də Azərbaycan Texniki Universitetinin də hər birində mühafizə var. Həmçinin Bədən Tərbiyəsi Akademiyasında olduğumuz zaman burada da qapıda mühafizənin olduğunu müşahidə etdik. Belə ki, akademiyaya daxil olmaq üçün çöl girişdə turniketdən keçməlisən. Bu zaman isə səndən nə üçün gəldiyin soruşulur. Daha sonra içəri buraxılıb-buraxılmamağınla bağlı qərar verilir.










Qərbi Kaspi Universitetində də vəziyyət oxşardır. Bu universitetdə də girişdə turniketlər var. Əgər universitetin tələbəsi və ya müəllimisənsə, sənə verilən kart keçmən üçün şərait yaradır. Digər şəxslər isə içəri yalnız kimin yanına, hansı səbəbdən gəldiklərini söylədikdən sonra keçə bilərlər.

Ümumiyyətlə, müşahidə etdik ki, universitetlər artıq bu sistemə keçirlər. Yeni girişdə turniketlər qoyulur və buradan içəri giriş tələbə kartı ilə mümkündür. ADA universitetində, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti nəzdində yeni yaradılan Azərbaycan Fransa Universitetində də oxşar vəziyyətdir.

Azərbaycan Pedaqoji Universitetinin "Gənclik" korpusunda isə köhnə üsullarla yoxlanışın aparıldığını müşahidə etdi. Belə ki, universitetin girişindəki tikilidə mülki geyimdə oturan şəxs, içəri daxil olan kənar şəxslərin ad, soyadlarını qeyd edirlər. Tələbələr isə sərbəst şəkildə girib-çıxırlar. Korpuslarda isə mühafizəçilər dayanıb, tələbələrin biletlərinə nəzarət edirlər. Yaxınlıqdakı Azərbaycan İqtisad Universiteti, Bakı Avrasiya Universiteti, Azərbaycan Tibb Universitetində də mühafizə qaydası eynidir. Söhbət etdiyimiz tələbələr bildirdilər ki, bəzi hallarda mühafizəçilər onlardan israrla tələbə bileti tələb edib, sonra içəri buraxırlar. Ancaq elə vaxt da olur ki, heç baxan olmur...

Orta məktəblərdə isə fərqli mənzərənin şahidi olduq. Əvvəla, müşahidə etdik ki, heç bir orta məktəbin çöl qapılarında mühafizə yoxdur. İstənilən şəxs məktəbin həyətinə rahat şəkildə daxil ola bilər. Məktəblərin də ətrafı çəpərləndiyi üçün demək olar ki, orta məktəbin geniş həyəti var. Bu həyət isə mühafizəsiz olaraq qalır. İçəridə qapının ağzında bir nəfər mühafizəçi geyimində əyləşir. Nə universitetlərdə, nə də məktəblərdə olan mühafizəçinin üzərində hansısa silah və digər bu kimi özünümüdafiə cihazına rast gəlmədik. Bəzi məktəblərdə mühafizəçinin sayı 2, əksəriyyətində isə 1 nəfərdir. Onlar da qapının ağzındakı stulda əyləşib, içəri daxil olanlardan kimin yanına gəldiklərini soruşurlar. İçəri buraxmağı məsləhət bilmədikdə direktorun müavini ilə əlaqə saxlayırlar. Növbəti addımları onun verdiyi təlimata uyğun olur. Yəni əksər orta məktəblərdə hansısa mərkəzləşmiş mühafizə sistemi mövcud deyil.

**"Yeni Müsavat"a danışan təhsil eksperti Kamran Əsədov bildirib ki, hazırda orta ümumtəhsil məktəblərimiz demək olar ki, mühafizə edilmir:** "Orta məktəblərdə tamamilə fərqli funksiyanı yerinə yetirməli olan şəxslər, qapıda qapıçı funksiyasını yerinə yetirirlər. Bu adamlar hansısa fövqəladə hallarda şagirdləri təxliyə edə biləcək bacarıqlara da malik deyillər. Yaxud da xoşagəlməz hücum, təbii fəlakət zamanı özlərini müdafiə etmək bacarığı olmayan, yaşlı insanlardır. Bu da doğru deyil. Bu gün məktəblərin qapılarında dayanan şəxslər şagirdlərin dərs prosesində məktəbdən getmələrinin qarşısını almağa yönəlib. Ancaq onlar hansısa bir terror aksiyası, silahlı hücum zamanı, yaxud da məktəbdaxili insident vaxtı bunun qarşısını almaq bacarıqlarına malik deyillər. Qanunvericilikdə nəzərdə tutulub ki, məktəb özü xidmətlər göstərən fond formalaşdırıb, aidiyyəti üzrə ya özəl şirkətə, ya da dövlətin mühafizə xidmətini həyata keçirən orqanlarına müraciət edib, öz qapısına silahlı və ya silahsız mühafizəçinin təminini həyata keçirə bilər. Azərbaycanda 4500 orta məktəb, 54 universitet var. Yalnız bəzi universitetlərdə mühafizə xidmətinin əməkdaşları mühafizəni həyata keçirə bilirlər. Orta məktəblərdə isə bu, belə deyil. Yalnız özəl məktəblərdə ödənişli xidmətlərlə mühafizəçilər var. Azərbaycanda polis mühafizə xidməti də var. İstənilən şəxs, qurum müraciət edib, vəsaiti ödədikdən sonra mühafizə xidmətinin həyata keçirilməsini təmin edə bilər. Orta məktəblərdə bunun olması vacibdir. Amerikada 2017-ci il ərzində 291 şagird məhz bunun qurbanı olub. Ona görə ölkədə də məktəbdaxili şagirdlər arasında bıçaqlanmalar, davalar, təbii fəlakətlər ola bilər. Bu problemlərin qarşısını almaq üçün xüsusi təlim keçmiş şəxslər mühafizə missiyasını həyata keçirməlidirlər".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat",**
**Fotolar müəllifindir**

# Bakıda civə alveri - kim və niyə alır...

## Mahmud Hacıyev: "Hərbi təyinatlı zəhərli maddədir, kütləvi qırğın silahlarında da istifadə edilməsi haqda məlumatlar var"






**Bakıda civə satmaq istəyən şəxslər saxlanılıblar. Nizami Rayon Polis İdarəsi 24-cü Polis Bölməsi və Dövlət Təhlükəsizlik Xidmətinin yerli idarəsi əməkdaşlarının birgə həyata keçirdiyi əməliyyat nəticəsində Ağcabədi rayon sakinləri Tuqay İmanov, Adəm İsmayılov və əvvəllər məhkum olunmuş Hacı Qurbanov 400 qram civəni satmaq istəyən zaman saxlanılıblar.**

Araşdırma zamanı məlum olub ki, Adəm İsmayılov onda civə olması barədə digər dəstə üzvlərinə məlumat verib. Daha sonra Hacı Qurbanov həmin civəyə müştəri tapıb satmağı və əldə edilən pulu 3 nəfər arasında bölməyi təklif edib. Adəm İsmayılov istintaqçılara deyib ki, Hacı Qurbanov civəni 20 min manata müştəriyə satacağını bildirib. Civənin alıcısı haqda məlumat verilmir. Ümumiyyətlə isə mətbuatda civə alveri edənlərin ələ keçməsi ilə bağlı ara-sıra məlumatlar yayılır.

**Sabiq polis rəisi Mahmud Hacıyev deyir ki, civə zəhərli maddədir və alveri qanunla qadağan olunub:** "Cinayət Məcəlləsinin 240.1-ci - güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi, narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələri satış məqsədi ilə qanunsuz hazırlama, emal etmə, əldə etmə, saxlama, daşıma və ya göndərmə, habelə bu maddələri və ya onları hazırlamaq yaxud emal etmək üçün avadanlığı qanunsuz satma - maddəsi var. Bu maddə ilə civə alverçilərini 3 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası gözləyir. Civə strateji əhəmiyyətli məhsul, hərbi təyinatlı maddə hesab edilir. "Qara bazar"da satılan maddədir. Çox təhlükəli maddədir. Sovet İttifaqı dağılanda hərbçilər müttəfiq respublikalardakı hərbi obyektləri dağıtdılar. Həmin illərdə hərbi hissələrdən digər hərbi təyinatlı mal-materiallarla yanaşı civə də onun bunun əlinə çox keçdi. Hərbi təyinatlı zəhərli maddədir, kütləvi qırğın silahlarında da istifadə edilməsi haqda məlumatlar var".

**Mahmud Hacıyev deyir ki, zəhərli kimyəvi maddənin satışı cinayətdir:** "Silah alveri etdin və ya civə alveri etdin, elə də fərq yoxdur".

**❑ E.MƏMMƏDƏLİYEV**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 37 (6926) 16 fevral 2018

# ABŞ dövlət katibi Türkiyədə - gərginlik bitirmi...

**ABŞ-ın dövlət katibi Reks Tillersonun fevralın 15-də Türkiyəyə səfəri başlayıb. İki gün davam edəcək səfərdə Tillersonun prezident Rəcəb Tayyib Ərdoğan və digər dövlət rəsmiləri ilə keçirəcəyi görüşlərdə iki ölkə arasında son dönəmlərdə qeydə alınan narazılıqların müzakirə olunacağı bildirilir. Həmçinin Türkiyənin Afrindəki əməliyyatı və Amerikanın Suriyanın Türkiyə ilə sərhədində yerləşən terrorçulara silah göndərməsi məsələsi də müzakirə mövzusudur.**

## Ekspert: "Tillerson Türkiyəyə problemləri çözməyə gəlib"

Siyasi ekspertlərin Tillersonun Ankara səfərinin əhəmiyyəti barədə fikirləri heç də birmənalı deyil. Çoxları hesab edir ki, bu səfər Türkiyə ilə ABŞ arasında olan narazılıqları aradan qaldırmayacaq. Arqument kimi də, ötən ilin iyulunda ABŞ dövlətinin katibinin Türkiyə səfəri və həmin səfərdən sonra hər iki ölkə arasındakı münasibətlərdəki soyuqluğun nəinki aradan qaldırılmadığı, əksinə, daha da dərinləşdiyi göstərilir. Amma səfərin iki ölkə arasındakı əlaqələrə ciddi təsir edəcəyinə ümidlər də kifayət qədər çoxdur.

**Siyasi ekspert Elşən Mustafayev hesab edir ki, Tillersonun səfəri iki dövlət arasında gərginliyin azaldılmasına yönəlib:** "Türkiyə və ABŞ arasında münasibətlər Afrin əməliyyatından sonra daha da gərginləşib. Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu da dilə gətirib. Hətta deyib ki, ABŞ-ın terror təşkilatları kimi tanınan PYD-YPG-yə münasibətini dəyişməyəcəyi halda əməliyyatları daha da genişləndirəcək, Mehbiç və Fərat çayının Şərq sahillərinə də gedəcəkdir. Bu, kifayət qədər ciddi bəyanatdır. Tillersonun Türkiyəyə səfəri də bu kimi məsələlərin müzakirəsinə və gərginliyin azaldılmasına hesablanıb. Əslində isə bu razılaşmalar tərəflərin Suriya məsələsinə münasibətlərində ortaq nöqtələrin tapılmasından asılı olacaq. Sözsüz ki, Tillerson Türkiyəyə münasibətləri daha da gərginləşdirməyə yox, problemləri çözməyə gəlib. Eyni ilə Türkiyə də bunda maraqlıdır. Nəticə isə proseslərə tərəflərin yanaşmasından, hansısa məsələlərdə güzəştə gedib-getməməsindən asılı olacaq. Hesab etsək ki, regiondakı terrordan Türkiyə daha çox əziyyət çəkir və bu əməliyyatlara təhlükəsizliyini təmin etmək məqsədilə başlayıb, o zaman ABŞ da bunu nəzərə almalıdır. Afrin əməliyyatı başlayandan sonra ABŞ-ın və Avropa institutlarının Türkiyəni qınayan bəyanatları verilsə də, əməliyyatlar davam etdirildi. Bir-birinin ardınca yaşayış məntəqələri azad olunmağa başladı. Kifayət qədər yaxşı silahlanmış terror qruplaşmaları ağır itkilər verdilər və bu hal hazırda davam edir. Eyni zamanda



Türkiyənin də canlı və texnika itkiləri var. Bu itkilərin olmasından istifadə edən daxildə olan bir sıra qüvvələr təbliğat kampaniyasına başlayaraq əməliyyatları dayandırmağa çağırdılar. Ancaq bu olmadı və insanları da bu əməliyyatlar əleyhinə qaldıra bilmədilər. Açıq şəkildə göründü ki Türkiyə hədəfə çatana qədər dayanmayacaq. Tillersonun səfərinin bu ərəfəyə düşməsi məhz bu səbəbdən təsadüfi deyil. Hesab edirəm ki, ciddi şəkildə danışıqlar olacaq. Bu danışıqların detallarının böyük bir hissəsi ictimaiyyətə qapalı olsa belə, nəticənin ümumi konturları bilinəcək. Əsas problem ABŞ-in PKK-nin Suriya qolu olan YPG və PYD-ni terror qruplaşması kimi tanıması, heç olmasa onları silahlandırmağı dayandırmasıdır. Bilirsiz ki, ABŞ bu təşkilatları terrorçu kimi yox, İŞİD və Əsəd rejiminə müxalif qüvvə kimi qəbul edir . İki ölkə arasında razılaşdırıla bilməyən əsas məsələlərdən biri budur. Əgər Tillerson həqiqətən Türkiyə ilə münasibətləri yaxşılaşdırmağa gəlibsə, bu məsələdə ilkin güzəştlərini edə bilər. Yeni həmin qruplaşmaların Türkiyə sərhədindən razılaşdırılmış məsafədə geri çəkilməsində rol oynaya bilər. Sonrakı etapda yenə də onlarla bağlı müzakirələr ola bilər. Əks halda, münasibətlərin yaxşılaşacağından söhbət belə gedə bilməz. Hesab edirəm ki, ABŞ indiki məqamda münasibətlərin durulmasında maraqlıdır. Tillersonun ötən səfəri ilə indiki arasında fərq çox böyükdür. İstər regiondakı vəziyyət, istərsə də iki ölkə arasında münasibətlər keçən ilkindən daha gərgindir. Hətta deyərdim ki, kritik xətti keçmək ərəfəsindədir. Hansı ki, NATO üzvü olan iki ölkənin bu xətti keçməsi ABŞ üçün yolverilməzdir. Buna görə də düşünürəm ki, bu danışıqlar konstruktiv və konkret nəticəyə hesablanmış şəkildə aparılacaq. Son vaxtlar Rusiya-Türkiyə münasibətlərində inkişaf edən iqtisadi münasibətlər siyasi münasibətlərə keçmək üzrədir. Kremlin bu əməkdaşlıqda öz marağı var. Məlumdur ki, Türkiyəyə o qədər simpatiyası olmayan, bir çox məsələlərdə fərqli düşünən Rusiya bu əməkdaşlığı dünyada təklənmə təhlükəsinə görə qurur və buna görə də hazırkı prosesi diqqətlə izləyir. Təbii ki, Türkiyə kimi dövlətin indiki məqamda strateji müttəfiq olaraq Rusiya ilə yaxınlaşması Putin administrasiyası üçün çox vacibdir. Eyni ilə Türkiyə də yaranmış vəziyyətdə maraqları naminə Rusiya ilə yaxınlaşır. Ona görə də Kreml ABŞ-Türkiyə münasibətlərinin yaxşılaşmasında maraqlı deyil. Eyni zamanda yaxşı bilir ki, məsələlər ABŞ-Türkiyə arasında olacaq danışıqlardan, ediləcək güzəştlərdən asılıdır".

❑ **Cavanşir ABBASLI**
❑ **"Yeni Müsavat"**

# Qarabağda müharibə üçün üç mühüm şərt

## Şahin Cəfərli: "Nə qədər ki, münaqişə davam edir və sülh əldə olunmayıb, hərbi əməliyyatların başlaması riski hər zaman var"

## Arzu Nağıyev: "Biz belə vəziyyətin yarana biləcəyinə hərtərəfli hazırıq, istər ordu, istər diplomatik kanallar, istərsə də Azərbaycan vətəndaşları"

**"Mən kəşfiyyat xidmətlərinin açıq hesabatlarına çox da böyük əhəmiyyət verilməsinin tərəfdarı deyiləm. Real durum adətən qapalı hesabat və raportlarda əksini tapır".**





**Politoloq Şahin Cəfərli** bu fikirləri ABŞ Milli Kəşfiyyat direktorunun Qarabağda dağıdıcı müharibənin olacağı ilə bağlı hesabatını "Yeni Müsavat"a şərh edərkən bildirdi. Ekspertin fikrincə, ABŞ Milli Kəşfiyyat direktorunun açıqladığı və 2018-ci il üçün dünyada təhdidlərin qiymətləndirildiyi hesabat hadisələrin mümkün inkişafına dair proqnozların, ehtimalların, mümkün ssenarilərin yer aldığı analitik səneddir: "Orada yazılanların yüzdə-yüz gerçəkləşəcəyini düşünmək yanlış olar. Məsələn, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yazılanlara baxaq. Bildirilir ki, münaqişə irimiqyaslı hərbi qarşıdurmaya çevrilə bilər. Doğrudur, nə qədər ki, münaqişə davam edir və sülh əldə olunmayıb, hərbi əməliyyatların başlaması riski hər zaman var. Bunu bilmək və anlamaq üçün ABŞ və ya hansısa xarici kəşfiyyatın hesabatına ehtiyac yoxdur. Hesabatda qeyd olunur ki, müharibə başlayarsa, Ermənistanın müttəfiqi Rusiya da bu ixtilafa cəlb oluna bilər. Bu da sirr deyil, Rusiyanın Ermənistanda hərbi bazaları var, iki ölkə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində müttəfiqdir, hətta birləşmiş qoşun qruplaşması da yaradıblar. Münaqişə alovlanarsa, Rusiyanın baş verənləri kənardan izləyəcəyini düşünmək sadəlövhlük olardı, Moskva ən azı siyasi səviyyədə olaya müdaxilə edəcək. Necə ki 2016-cı ilin aprelində biz bunu gördük: "Rusiyanın müdaxiləsi olmasaydı, böyük ehtimalla Azərbaycan ordusu daha böyük əraziləri azad edəcəkdi. Yəni amerikalıların açıqladığı sənəddə qeyri-adi və bizim təxmin edə bilmədiyimiz məqamlar yoxdur".

**Bu il müharibənin baş verməsi ehtimalının nə dərəcədə real olmasına gəldikdə isə ekspert "mən bunu istisna etməməklə bərabər, belə bir ehtimalın yüksək olmadığını düşünürəm" deyə qeyd etdi:** "Əksinə, Azərbaycandakı prezident seçkilərindən və Ermənistanda idarəetmə sistemi dəyişikliyinin qüvvəyə minməsindən sonra sülh danışıqlarında növbəti intensivləşmə mərhələsi gözlənilir, bunu Azərbaycan Xarici İşlər Nazirliyi də bəyan edib. Bu danışıqların nəticə verib-verməyəcəyi isə başqa söhbətin mövzusudur".

**Politoloq Arzu Nağıyev isə "Yeni Müsavat"a dedi ki, ABŞ kəşfiyyat rəhbərinin hesabatı son vaxtlar artıq bir-birinə zidd olan iki xəbərdarlıqdan biridir:** "Təbii ki, belə xəbərdarlıqların edilməsi hansısa fakta söykənməli, səbəb və məqsədi aydın bilinməlidir. ABŞ Kəşfiyyatının belə bir məlumatı təbii ki, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı heç bir kompromisə getməyəcəyindən, Ermənistanın isə cinayətkar hakimiyyəti saxlamaq üçün status-kvonu qorumaq üçün danışıq proseslərindən, daha doğrusu, mərhələli danışıqlardan qaçmaları ilə bağlı ola bilər. Bundan başqa, son vaxtlar Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı nüfuz savaşı davam etməkdədir. ABŞ nümayəndələrinin regiona intensiv səfərləri, ATƏT-in Minsk Qrupunda təmsil olunan amerikalı həmsədr Endrü Şoferin qaçqınlarla görüşü - tanışlıq adı altında keçsə də - buna bir sübutdur. Bundan başqa, Rusiya analitikləri ABŞ-ın bu xəbərdarlıqlarını məhz özlərinin müharibə başlamaq istəyi ilə izah edirlər və təbii ki, burada da əsas məqsədlərdən birinin məhz Rusiyanı bu müharibəyə sövq etməkdən ibarətdir. Bütün təhlillər göstərir ki, müharibə, ümumiyyətlə, istənilən vaxt başlana bilər".

**Lakin A.Nağıyev onu da qeyd etdi ki, regionda məhz seçkilər ili olduğu üçün bunu heç kim arzulamır:** "Təbii ki, supergüclər də bunu istəmir. Sadəcə olaraq, regiondan çox da uzaq olmayan ərazilərdə gedən müharibələrin müəyyən təsirləri də ola bilər. Burada ABŞ-İran, ABŞ-Rusiya qarşıdurması, Türkiyənin Suriyada apardığı antiterror əməliyyatları mühüm əhəmiyyət kəsb edən amillərdir. Ermənistana qalsa bu müharibə ilk növbədə ona lazım deyil və bütün təhlillər göstərir ki, uduzan o olacaq. Çünki ictimai-siyasi rəy bu gün orada hakimiyyətin əleyhinə işləyir".

**Bəs xəbərdarlığın reallığa əsaslandığı halını götürsək, Azərbaycan xalqı, diplomatiyası və hərbi qüvvələri bütün cəbhələrdən hücuma keçib hərbi-diplomatik və ideoloji məkanda torpaqlarını azad etmək gücündədirmi?**

**A.Nağıyev nikbindir:** "Azərbaycana gəldikdə, biz belə vəziyyətin yarana biləcəyinə hərtərəfli hazırıq, istər ordu, istər diplomatik kanallar, istərsə də Azərbaycan vətəndaşları. Çünki bu proseslərin sonu olmalıdır və artıq yenidən deklorativ bəyanatları eşitmək istəyi heç kimdə qalmayıb. Hərbi yolla münaqişənin həlli bir variant kimi gündəmdən çıxmayıb".

❑ **Cavid TURAN**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 37 (6926) 16 fevral 2018

# “Anarın kitablarını yandıraq!” çağırışına sərt reaksiyalar

**Musa Yaqub:** “Əgər gənclər onun siyasətini bəyənmirsə... ”
**Əkrəm Əylisli:** “Bu, çox mənasız, heç kəsə lazım olmayan bir aksiyadır ”







**Məlum olduğu kimi, bir neçə gün öncə bir qrup gənc sosial şəbəkələrdə yazıçı Anarın və Çingiz Abdullayevin kitablarının yandırılması ilə bağlı kampaniya başladıb. Səbəb isə fevralın 9-da keçirilən tədbirdə yazıçıların seçkidə YAP-ın namizədinə dəstək verəcəyini bildirməsi olub.**

Maraqlıdır ki, sosial şəbəkələrdə başladılan kampaniyada Azərbaycan Yazıçılar Birliyinin üzvləri də var. Yazıçı Anar artıq bu cür kampaniyanın başladılmasına reaksiya verib. O, gununsesi.info-ya açıqlamasında kitablarının yandırılmasını pis hərəkət kimi dəyərləndirib: “Bu, tərbiyəsizlikdir. Yandırsınlar, bununla nəyə nail olacaqlar? Faşistlər də zamanında kitabları yandırırdı, sonu isə bəlli oldu”.

**Yazıçı bu cür adamların cəmiyyətdə barmaqla sayılacaq qədər olduğunu deyib:** “Bizi sevən, bizi oxuyan milyonlardır. Bir neçə nəfərin hansısa addım atması ictimaiyyətin mövqeyi demək deyil”.

**Yazıçı Çingiz Abdullayev isə AzadlıqRadiosuna müsahibə verərək olaya bu cür mövqe bildirib:** “Birincisi, mən prezidenti 30 ildən çoxdur tanıyıram. İkincisi də, mən üç dəfə onun vəkili olmuşam. Bəs mən kimin tərəfində olmalıyam? Məni qınayanlar başa düşmürlər ki, üç dəfə seçkilərdə onun vəkili olmuşam. O, dəfələrlə deyib ki, mənim kitablarımı bəyənib, oxuyub. Bundan başqa, mən fikirləşirəm ki, doğrudan da bu namizədlərin arasında ən yaxşısı budur. Ona görə də mən ona səs verməyə çağırmışam, vəssalam... Orada ziyalılar yığışmışdılar. Öz mövqelərini çatdırırdılar. Amma təəssüflər olsun ki, bəzi jurnalistlər tarixi bilmirlər, görünür, bu bizim də nöqsanımızdır. 1993-cü ildə səkkiz adam o dövrkü prezident Əbülfəz Elçibəyin yanına, onun evinə getmişdilər. Həmin adamlar qəti şəkildə narazılıqlarını çatdırdılar. Rəhmətliklər Tofiq Quliyev, Vasif Adıgözəlov, Maqsud İbrahimbəyov və indi yaşayan Anar, Fərhad Xəlilov, Fərhad Bədəlbəyli, Rüstəm İbrahimbəyov və Çingiz Abdullayev - səkkiz adam gedib orda bütün narazılıqlarımızı dedik. 18 məsələ idi. O da yazırdı. Yəni biz ziyalılar hakimiyyəti həmişə dəstəkləmirik. Biz nədənsə razı deyiliksə, sözümüzü deyirik...”

**Sabiq millət Gültəkin Hacıbəyli isə kitab yandırmağı vandalizm adlandırıb.**

**Jurnalist Ramin Deko:** “Anarın kitablarını yandıraq” - nə demək? Bu nə düşüncə? Anarın mövqeyi xoşunuza gəlmir etiraz edin, kitablarını oxumayın, əsərlərini tənqid edin. Kitab yandırmaq - bu ancaq orta əsrlər təfəkkürü ilə yaşayanlara xas xüsusiyyətdi.

Anar əvvəlcə “Dantenin yubileyi”ni yazdı, sonra “Yaxşı padşahın nağılı”nı qələmə aldı. Bütün hallarda yazdı, ortaya bir əsər çıxartdı, onu sevməyənlərdən, söyənlərdən, hətta ondan fərqli mövqe qoymayanlardan önə çıxaraq ortalığa ciddi kitablar ərsəyə gətirdi. Məsələ anarlar deyil, olmamalıdı. Məddahlıq hər zaman olub, yenə də olacaq".

**Məsələ ilə bağlı “Yeni Müsavat”ın əməkdaşı xalq şairi Musa Yaqubun fikirlərini öyrənib. Musa Yaqub kitabların yandırılması kampaniyasını tənqid edib:** “Mən şəxsən yazıçının həmkarını ittiham etməsinin tərəfdarı deyiləm. İnsan öz yazıçısını boykot etməz, kitabını yandırmaz. Kitab təkcə yazıçının deyil, həm də balalarımızındır. Anar bizim gözəl yazıçımızdır. Olmaz! Gənclər nahaq yerə bu cür iş tutur. Əgər gənclər onun siyasətini bəyənmirsə, məhz ona qarşı mübarizə aparsınlar, əsərləri ilə nə işləri var?”

Bir neçə il öncə kitabları kütləvi şəkildə yandırılan yazıçı Əkrəm Əylisli isə “Yeni Müsavat”a danışaraq olaya bu cür reaksiya verib: “Mənə elə gəlir ki, bu çox mənasız, heç kəsə lazım olmayan bir aksiyadır. Mən belə şeyləri öz ətrafımda görmüşəm. Çox təəssüf ki, onlar mənimlə bağlı olan olayda məni müdafiə etmədilər. Kitab yandırmaq bütün hallarda pis hadisədir. Kitabın nədən bəhs etməsi, nə üçün yazılması heç vaxt onun yandırılmasına haqq qazandıra bilməz. Bunlar ya bekarçılıqdan, ya da mənəvi boşluqdan yaranır.

Ümumiyyətlə, həmin yazarların bir mövqeyi var, onlar hakimiyyətə gələn hər kəsi dəstəkləyir. Bu bir faktdır. Məsələn, Anar bu günə qədər 4 hakimiyyətin içərisindən keçə bilib. İndi bu onun qəhrəmanlığıdır, ağıllılığıdır, hər nədir, özü bilər, amma o, həmişə 4-5 dəfə hakimiyyət dəyişsə də yerində qala bilir".

❑ **Xalidə GƏRAY,**
**Musavat.com**



Anar Mirzəyev

# AFFA-nın sabiq prezidentinin yeganə oğlu qəzada həlak oldu

## Bir gün ərzində yollarda 7 nəfər həlak olub



Ramiz Mirzəyev

**Fevralın 15-də səhərə yaxın Sabirabad rayonunun Həşimxanlı kəndinin çöllük ərazisində kanala düşən avtomaşının sərnişini suda boğularaq ölüb. APA-nın məlumatına görə, Binəqədi rayonunda fəaliyyət göstərən “Lider Cola” şirkətinə məxsus H 009-703 dövlət nömrə nişanlı “Jeep” markalı avtomaşında olan 3 nəfərdən biri, həmin şirkətin rəhbəri, 33 yaşlı Bakı şəhər sakini Anar Ramiz oğlu Mirzəyev hadisə yerində dünyasını dəyişib.**

FHN-in xilasedicilәri onun cəsədini deformasiyaya uğramış nəqliyyat vasitəsindən çıxarıb və aidiyyəti üzrə təhvil veriblər.

Olimpsport.az-a istinadən xəbər verir ki, qəzada həlak olan Anar Mirzəyev AFFA-nın keçmiş prezidenti, mərhum Ramiz Mirzəyevin oğludur.

Anar Mirzəyev fevralın 15-də doğulduğu Tovuz rayonunun Dondar Quşçu kəndində atasının yanında dəfn olunub.

Xatırladaq ki, ötən il Ramiz Mirzəyevin qardaşı oğlu Orxan Mirzəyev də avtomobil qəzasında həlak olmuşdu.

Ramiz Mirzəyev 1954-cü ildə Tovuzda anadan olub. 1997-ci ildən 2006-cı ilə qədər “Azneftyağ”ın direktoru işləyib. 2006-cı ildə sənaye və energetika nazirinin müavini təyin olunub. 2003-cü ildən isə AFFA prezidenti postunu tuturdu. Ramiz Mirzəyev Bakının Xətai rayonundan hakim partiyanın namizədi kimi deputat da seçilmişdi. 2007-ci ildə o, xərçəngdən vəfat edib. Ramiz Mirzəyev xeyriyyəçilik fəaliyyəti, ehtiyacı olanlara əl tutması ilə tanınırdı.

Qeyd edək ki, fevralın 14-də Azərbaycanda baş vermiş yol qəzalarında 7 nəfər ölüb. Belə ki, Bakının Nizami rayonunda “QazEl” markalı yük maşını ahıl kişini vurub öldürüb. Gecə saatlarında isə Qaradağda “VAZ” markalı minik avtomobilinin “KamAZ”a çırpılması 2 nəfərin ölümünə səbəb olub.

Daha bir ağır qəza Bərdə şəhərinin Koroğlu küçəsində qeydə alınıb. “VAZ” markalı minik avtomobilinin ağaca çırpılması 2 gəncin ölümü ilə nəticələnib.

Bundan başqa, İsmayıllı rayonunun Qalacıq kəndində “Niva”nın aşması, Sabirabadda isə sabiq AFFA prezidentinin oğlunun düşdüyü qəza da insan itkisi ilə nəticələnib.

# Kəlbəcər əsirləri 2 erməni diversantla dəyişdirilə bilər

**“Dilqəm Əsgərov və Şahbaz Quliyevin erməni girovluğundan azad edilməsi üçün bir neçə beynəlxalq təşkilata müraciət etmişik. Bu məsələ ilə bağlı tərəfimizdən iş aparılır”.**



APA-nın xəbərinə görə, bunu Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, İşçi Qrupun rəhbəri İsmayıl Axundov deyib. Bu istiqamətdə işlərin davam etdirildiyini söyləyən İ. Axundov qeyd edib ki, Azərbaycanda saxlanılan erməni diversantların dəyişdirilməsi məsələsinə baxıla bilər.

Qeyd edək ki, 2014-cü ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər, Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib. İşğal altındakı Dağlıq Qarabağda D. Əsgərov və Ş. Quliyev üzərində qanunsuz “məhkəmə” qurulub. “Məhkəmə”nin qərarı ilə D. Əsgərov ömürlük, Ş. Quliyev 22 il müddətinə azadlıqdan məhrum edilib.

Ötən ilin fevralında isə Azərbaycan vətəndaşı Elnur Hüseynzadə Dağlıq Qarabağda, Talış kəndi istiqamətində naməlum şəraitdə ermənilərin əlinə düşüb.



Azərbaycanda hazırda 2 erməni diversant - Arsen Baqdasaryan və Zaver Karapetyan saxlanılır. A. Baqdasaryan Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 15 il müddətinə azadlıqdan məhrum edilib.

YENİ MÜSAVAT
N 37 (6926) 16 fevral 2018



## Xanhüseyn Əliyev 60 yaş

**60 il əvvəl- 1958-ci il fevral ayının 17 -də Hacıqabul rayonunda anadan olmuş Azərbaycan Mətbuat Yayımları sahəsində olkədə ilkə imza atmış, hər bir mətbuat işcisinin xoş sözlərlə yada saldıgı "Qaya Mətbuat Yayımı"nın qurucusu Xanhüseyn müəllimin ad günüdür. Bu əlamətdar gün-yubiley münasibətilə Xanhüseyn müəllimi təbrik edir, ona cansağlığı, işlərində uğurlar arzulayırıq.**

**60 yaşınız mübarək!**

# Yeni infeksiya - "bağırsaq qripi": ondan necə qorunmalı?

## Səhiyyə Nazirliyi məsələyə reaksiya verdi; **Adil Qeybulla:** "Bütün virus infeksiyalarına ciddi yanaşılmalıdır"



**Son vaxtlar əhali arasında yayılan qrip növlərindən biri də "bağırsaq qripi" deyilən infeksion xəstəlikdir. Bu infeksiya yalnız Azərbaycanda deyil, qonşu ölkələrdə də yayılıb. Maraqlıdır, hər kəsi təlaşa salan bağırsaq qripinin ilkin əlamətləri nədir?**

Mütəxəssislər "bağırsaq qripi"nin infeksion xəstəlik olduğunu və bu xəstəliyi rotavirusun törətdiyini bildirirlər. Xəstəlik zamanı əsasən mədə-bağırsaq sistemi zədələnir və bu səbəbdən xəstəlik məhz "bağırsaq qripi" adlandırılır. Bağırsaq qripinə istənilən yaşda təsadüf edilir. Xüsusilə bu xəstəlik uşaqlarda və immun sistemi zəif olan insanlarda tez-tez inkişaf edir.

İlk dəfə 1973-cü ildə avstraliyalı mütəxəssislər tərəfindən aşkar olunmasına baxmayaraq rotavirus inveksiyası müasir dövrdə öz aktuallığını saxlayır. Bəzi statistik məlumatlara görə, 3 yaşına qədər uşaqlarda müşahidə edilən ishalların 95 faizi rotaviruslar vasitəsilə törədilir. Orqanizmə düşdükdə virus mədə-bağırsaq sisteminin, xüsusilə nazik bağırsağın, selikli qişasının hüceyrələrinə daxil olur. Bunun nəticəsində bağırsaqların daxili səthini örtən tükcüklər məhv olur. Bu tükcüklər qidanın həzmində və sorulmasında böyük rol oynayır. Bu proses pozulduqda qida normal həzm olunmur və sorulmur ki, nəticədə güclü ishal inkişaf edir. Xəstəliyin əlamətləri 24-48 saat ərzində özünü büruzə verir. İlk əlamətləri mədə bulantısı, qusma və ishaldır. Daha sonra qızdırma, halsızlıq, qarında tutma şəkilli ağrılar, iştahanın azalması, öskürək, zökəm, zəiflik, halsızlıq, baş ağrıları (intoksikasiya səbəbindən) olur. Xəstəliyin kəskin dövrü 7 gün davam edir. Bu vəziyyətdə dərhal həkimə müraciət vacibdir. "Bağırsaq qripi" zamanı xəstədə ishal və qusmanın inkişaf etməsi orqanizmdə güclü susuzlaşma yaradır ki, bu da uşaqlar üçün həyati təhlükə yarada bilər.

Qeyd edək ki, "bağırsaq qripi" ilə yanaşı tərəvəz və keçi qripləri də mövcuddur. Ümumiyyətlə, bütün viruslar kimi qrip virusu da zamanla dəyişikliyə və mutasiyaya uğrayır. Orqanizm ona qarşı əks-cisimlər hazırlayana qədər virus dəyişir və yaranmış əks-cisimlər onu tanıya bilmir. Nəticədə virus orqanizmin immun sisteminin zərbəsindən yayına bilir və daim xəstəlik törətmyə qadirdir. Hər il qripdən orta hesabla 20-30 min arası insan dünyasını dəyişir.

**Lakin Səhiyyə Nazirliyinin baş infeksionisti Cəlal Musayev yayılan infeksiyanın "bağırsaq qripi" olmadığını dedi:** ""Bağırsaq qripi" deyilən bir xəstəlik yoxdur. Sadəcə, mövsümlə əlaqədar yayılan qrip virusu var ki, bu da fevralın ilk on günlüyündən sonra azalmağa başlayıb. Sadəcə olaraq, əvvəlki illərə nisbətən bu qrip ağır keçdiyinə görə insanlar arasında təlaş yaradıb. Amma əvvəlki illərin eyni dövrü ilə müqayisədə qripə yoluxanların sayında artım müşahidə olunmur. Bütün hallarda qrip xəstəliyi təhlükəlidir. Pasiyentlər xəstəlik dövrünü yataqda keçirməli, həkimə müraciət etməli və müalicə qəbul etməlidirlər. Həkimin bütün göstərişlərinə əməl edəndə qripin ağır keçirilməsinin təhlükəsi olmur. Bu cür soyuqdəymə nəticəsində ishal da ola bilər. Amma bağırsaq qripi deyil".

Tibb elmləri doktoru, professor **Adil Qeybulla da bildirdi ki, bütün virus infeksiyalara ciddi yanaşılmalıdır:** "Mən deməzdim ki, hazırda xəstəxanalar bu cür infeksion xəstəlik qapmış xəstələrlə doludur. Sadəcə olaraq, Azərbaycanda hazırda xeyli kəskin respirator xəstə var. Onların əksəriyyəti ambulator qaydada müalicə olunurlar. Təbii ki, ola bilsin, müəyyən kateqoriyalı xəstələr infeksion xəstəliklər şöbəsində, terapiyada və sairədə yatsınlar. Əslində "bağırsaq qripi" deyəndə bu bağırsağın əlamətləri ilə davam edən kəskin respirator infeksiyadır. Əhalinin bundan necə qorunması, nələrə riayət etməsi ilə bağlı Səhiyyə Nazirliyi insanları məlumattlandırmalıdır. Buna görə də əhali arasında şayiələr baş alıb gedir".

**❑ Günel MANAFLI,**
**"Yeni Müsavat"**

# "Qəsəbəmizin adı Bahardır, amma burda ömrümüz çürüyür"

**"Bizim yaşadığımız qəsəbənin adı Bahardır, amma burada bahar adına uyğun gələn heç nə yoxdur. Burada, sadəcə, bizim ömrümüz çürüyür".**





## Bahar bağçılıq massivinin sakinləri kanalizasiya və yolsuzluq problemindən şikayətlənir

Bunu redaksiyamıza müraciət edən Suraxanı rayonu, Bahar qəsəbəsi kimi tanınan bağçılıq massivinin sakinləri deyir. Onlar bildirir ki, 1987-ci ildə bu ərazidə torpaqlar yüksək nailiyyətlər göstərmiş neftçilərə bağ yeri kimi verilib: "Hazırda burada 1000-dən çox ev var. Əksər evlərin sahibləri ömrünü neft sahəsində fəda etmiş zəhmətkeşlərdir. Biz illərdir ki, bu qəsəbədə yolsuz və kanalizasiyasız yaşayırıq. Təsəvvür edin, 1000-dən çox evin yerləşdiyi, 4-5 min sakinin yaşadığı qəsəbədə kanalizasiya xətti yoxdur və bu səbəbdən antisanitariya vəziyyəti hökm sürür. İnsanlar məcbur olur kanalizasiya sularını küçələrə axıdırlar. Uşaqlarımız da həmin o çirkab suların içərisində oynayır, məktəbə gedib gəlirlər".

Qəsəbə sakinləri deyir ki, bu illər ərzində Bahar qəsəbəsinə asfalt yol da çəkilməyib: "Qəsəbə Hövsan yolunun yaxınlığında yerləşir. Yəni elə çox ucqar da deyil. Əhali dəfələrlə müvafiq qurumlara, icra hakimiyyətinə müraciət etsə də, məhəl qoyan yoxdur. Buradakı evlərin çoxunun "kupça"sı var. Yəni ki, qanunsuz salınan ərazi deyil. İşıq, qaz, su, telefon xətləri verilib. Ancaq kanalizasiya və yol çəkmirlər. Aidiyyəti qurumlara və Suraxanı Rayon İcra Hakimiyyətinə dəfələrlə müraciət etmişik. Bir-iki dəfə gəlib baxıb getməkdən başqa bir iş görülməyib. Bakıətrafı qəsəbələrin inkişafı ilə bağlı dövlət sərəncam verib. Amma bizim qəsəbəni müvafiq strukturlar "yaddan çıxarıb". Xahiş edirik, bizim qəsəbəmizə kanalizasiya xətti və yol çəkilsin, biz də burada normal yaşaya bilək".

**❑ M.MAHRIZLI**
**"Yeni Müsavat"**

# Bayılda son durum: əhali küçəyə atılacağından qorxur

## **Elməddin Muradlı:** "Sakinləri narahat edən əsas məsələ budur ki, ortada heç bir rəsmi sənəd yoxdur"



**Bayıl yamacındakı sürüşmə zonasında yaşayan sakinlərin evləri ölçülür və siyahı dəqiqləşdirilir. Bu barədə "Yeni Müsavat"a sakinlər məlumat veriblər. Onların sözlərinə görə, siyahıyaalınma prosesində bəzi nöqsanlara yol verilir. Sürüşmə isə aktiv fazada qalmaqdadır.**

Son vəziyyətlə bağlı qəzetimizə açıqlamasında **ərazidə yaşayan jurnalist Elməddin Muradlı** bildirib ki, kirayə pulunun ödənilməsi ilə bağlı hələ də heç bir addım atılmayıb: "Səbayel Rayon İcra Hakimiyyəti tərəfindən sakinlərə evlərini boşaltmaq göstərişi verilmişdi. Lakin bir qrup sakinlər evlərini boşaltmadılar. Çünki haqlı olaraq tələb edirlər ki, evi boşaltmaq üçün bizə müqavilə, sənəd göstərin. Sabah evi söküb, üstünü də torpaqlayandan sonra kim, necə sübut edə biləcək ki, burada ev olub və neçə kvadrat idi? Heç bir tələb irəli sürmək mümkün olmur. Ona görə də bəzi sakinlər evlərini boşatmırlar. İşıq, qaz olmasa da evlərində gecələyirlər. Düşünürəm ki, haqlı olaraq məsələ qaldırılır. Çünki evləri sökmək üçün hansısa səbəb olmalıdır. Səbayel Rayon İcra Hakimiyyəti sərəncam verməlidir ki, evlər filan səbəbə görə boşaldılır. Daha sonra sakinlərlə sənəd imzalanmalıdır ki, biz sizin evinizi təhvil götürürük, təhlükəsizliyinə də zamanət veririk. Bizə sənəd təqdim olunmalıdır ki, evimiz uçurdulacağı təqdirdə hansısa formada danışıqlar aparılacaq. Ona görə də kirayə pulu ilə bağlı da camaat narazılıq elədi ki, 1 il köçüb gedərəm, qayıdanda deyərlər ki, heç sənin burada evin olmayıb. Yaxud da haradan bilək ki, bizə nə qədər kompensasiya təklif olunacaq? Sakinləri narahat edən əsas məsələ budur ki, ortada heç bir rəsmi sənəd yoxdur".

**Müsahibimiz dedi ki, sonuncu dəfə 3 gün öncə kirayə pulu veriləcəyi vədi verilib. Ancaq hələ də bir xəbər yoxdur:** «Mənzil istismar sahəsinin işçiləri deyirlər ki, biz əhalini 2013-cü ilin siyahısı ilə qeydiyyata alırıq. Təsəvvür edin ki, mən, valideynlərim, qardaşlarımın ailəsini götürüb 6 nəfər yazıblar. Halbuki 9 nəfər olmalıdır. Yaxşı, 2013-cü ilin siyahısı ilə necə işləmək olar? O vaxtdan bəri ölənlər olub, yeni doğulanlar var. Evlərin sayını da peykdən baxaraq qeyd edirlər. Bizim həyətdə mənim, atamın, qardaşımın evinin damı birlikdə elə vurulub ki, 3 ev, 1 ev kimi görünür. Götürüb bunu 1 ev kimi qeyd ediblər. Düşünürəm ki, bu işlər icra hakimiyyətinin təkbaşına görəcəyi proses deyil".

**E. Muradlı bildirib ki, 108 ailənin taleyini 1 qurumun üzərinə buraxmaq olmaz:** "Orada digər müvafiq qurumların da əməkdaşlarının iştirakı ilə birgə komissiya təşkil olunmalıdır. Bizi torpaq sürüşməsi qorxusu ilə oradan çıxardıblar. Ancaq sabahımız məlum deyil. Bakı şəhərində də o qədər aldadıb evdən çıxarma hadisələri olub ki, bizim də inamsızlığımız buna görədir. Ona görə də evlərini boşaldanlar belə, gəlib keşik çəkirlər, işə, dərsə getmirlər. Düşünürlər ki, hər an, hər şey ola bilər. Gəlib evi sökərlər, deyərlər ki, evin 100 kvadrat yox, 25 kvadrat olub. Necə sübut edəsən? Şəxsən bizim evimiz orada 1994-cü ildə tikilib. Bizim kimi orada xeyli məcburi köçkün ailəsi var. Məcburi köçkün olaraq gedib nə kiminsə evini zəbt etmişik, nə də haradasa məskunlaşmamışıq. Halal zəhmətimizlə ev tikib, dövlətə də yük olmamışıq. İndi gəlib orada məcburi köçkünlərə başqa formada yanaşmaq doğru deyil".

**❑ Əli RAİS**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 37 (6926) 16 fevral 2018




# Ailədə dəyərlilik üçün İlahi formul

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Həzrət Fatimeyi-Zəhranın (s.ə) şəhadət günlərinin əyyamını yaşamaqdayıq. Allahdan istəyimiz budur ki, bütün Zəhrasevərlərə bu əyyamı dərk edib yaşatmağı, Qiyamət günündə Xanımın (s.ə) şəfaətindən bəhrələnməyi nəsib etsin.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Ailə nuraniyyəti üçün Peyğəmbərin (s) əzizlərindən formul

Xanım Fatimeyi-Zəhranın (s.ə) əyyamını yaşatmaq - həm də İslam tarixinə yenidən nəzər salmaqdır. Biz bu əyyamı yaşatmaqla həm də ona nəzər salırıq ki, bir ümmət, toplum qəflətdə olanda hansı həddə qədər tənəzzül edə bilər. Bu anlamda Xanımın (s.ə) şəhadət əyyamlarını yaşatmaq qəflətdən ayılmaq üçün, həyata bəsirətli baxmaq üçün böyük bir fürsətdir.

Xanım Fatimeyi-Zəhranın (s.ə) şəxsiyyətini tanımaq üçün Həzrət Əmirəlmömininindən (ə) olan bir cümləyə işarə etmək yerinə düşər. Əziz Peyğəmbərimiz Həzrət Əlidən (ə) Xanım Fatimeyi-Zəhra (s.ə) ilə bağlı soruşur. Peyğəmbərimiz (s) - Həzrət Zəhranın (s.ə) atasıdır, bu böyük Xanımı (s.ə) tərbiyə edəndir, hər mənada onu ən ali şəkildə tanıyandır.

Həzrət Əmirəlmömininin (ə) isə əziz Peyğəmbərimizin (s) yetişdirdiyi ən gözəl şagirddir. İslamın hər mənada insana verə biləcəyi bütün mövzuları Peyğəmbərimiz (s) öz ən ali şagirdinə ötürüb. Həzrət Əli (ə) - ən ali təqva nümunəsidir. Çox nurani bir səhnədir ki, ən yaxşı, ən gözəl, ən üstün varlıq, öz ən ali yetişdirdiyi, təqva nümunəsi olan şagirdindən Xanım Fatimeyi-Zəhra (s.ə) ilə bağlı soruşur. Həzrət Əmirəlmömininin (ə) bir cümlə ilə əslində bütün bəşəriyyət üçün böyük bir dərs keçir. Həzrət Əli (ə) buyurur: **"Xanım Fatimeyi-Zəhranı (s.ə) Allaha bəndəlikdə və itaətdə yaxşı yavər gördüm".**

## Ailə üzvləri bir-birilərini necə dəyərləndirməlidir?

Bizim mövzumuz İslamda ailədir. Əslində yuxarıdakı buyuruşda İslamda ailə mövzusu üçün böyük dərslər var. Ailə qurarkən insanlar hansı meyarları əsas götürməlidirlər? Allaha itaət, Allaha ibadət baxımından bu ailə qurmaq mənə nə verəcək?

Kişi gələcək həyat yoldaşını seçərkən, xanım gələcək həyat yoldaşını seçərkən meyar nə olmalıdır? Meyar bu olmalıdır ki, Allaha itaətdə, Allaha bəndəlikdə bu evlilik, bu ailə qurmaq nə kimi yardımçı ola bilər?

Ailə qurulduqdan sonra bir kişinin xanımını dəyərləndirməsinin və yaxud xanımın öz həyat yoldaşını dəyərləndirməsinin ən gözəl formulu budur. Bir kişi üçün onun xanımı Allaha itaətdə, Allaha bəndəlikdə nə qədər yaxşı yavərdir, yardımçıdır. Və əksinə - bir xanım üçün onun həyat yoldaşı Allaha itaət və bəndəlikdə nə qədər yaxşı yardımçıdır.

Təsəvvürümüzə gətirək ki, ailənin içərisində bu ab-hava hökmranlıq edə, həyat yoldaşları bir-birilərini bu cür dəyərləndirələr, bu cür baxalar, övladlar öz valideynlərinə bu cür yanaşalar - görün ailə nə qədər nuraniyyət tapar! Misal üçün, birindən soruşulanda ki, valideynlərin necə adamdır, onları bu meyarlarla dəyərləndirə ki, Allaha itaətdə və Allaha ibadətdə valideynlər nə qədər köməkçidir. Misal üçün, ailə üzvləri namazları əvvəl vaxtda qılmaqda, Quran oxumaqda bir-birilərini nə qədər təşfiq edirlər? Və bu kimi.

## Ailə üzvləri Allaha bəndə olmaqda bir-birilərinə yardım etməlidir

Əgər biz demək istəsək ki, bir ailənin xoşbəxt olması nədən keçir, deyə bilərik ki, bir ailənin xoşbəxt olmasının əsas amillərindən biri də bir-birilərini dəyərləndirmədə düzgün meyarın seçilməsidir. Allaha itaətdə və bəndəlikdə bir-birini yardımçı görmək - dəyərləndirmənin əsas meyarıdırsa, bu ailə həqiqi dünya və axirət xoşbəxtliyinə çatar.

Əgər ailədə bir-birini dəyərləndirmədə başqa məsələlər meyar olacaqsa, o başqa məsələlər bu dünyada belə, bu ailəni uğura çatdırmaq baxımından kifayət etmir. Zatən bu dünyanın halı, xarakteri budur ki, bir gün olar, bir gün olmaz. Bu dünyanın mahiyyəti belədir. İnsan dünyada həyat yoldaşı seçərkən, ailə qurarkən, ailə qurduqdan sonra bir-birini dəyərləndirərkən, övlad tərbiyəsində və s. məsələlərdə dünya olaraq hər nəyi özünə meyar seçsə, onların hamısı gəldi-gedərdir və onlar meyar olarsa, mütləqdir ki, bir gün xəyal qırıqlığı meydana gələr.

Amma meyar Allaha bəndə olmaq istəmək olarsa və Allaha bəndə olan bir insanla birgə həyat qurmaq niyyəti edilərsə, ailənin içərisində bir-birilərinə bu niyyətlə yanaşarlarsa - bu ailədə nuraniyyət və xoşbəxtlik hökm sürər.

Əlbəttə, biz fərqindəyik ki, elə bir dünyada yaşayırıq ki, bu kimi məsələlər haşiyəvi mövzular hesab edilir. Bu kimi məsələlər müasir dünyada hətta beşinci, onuncu məsələ olaraq belə, hesab olunmur. Fərqindəyik ki, elə bir dünyaya gəlib çatmışıq ki, ailə üzvlərinin, həyat yoldaşlarının oturub söhbət edəndə aqibətlərinin yaxşı olması üçün nələrisə müzakirə etmələri istisnavi məsələlərə çevrilib. Əslində isə dinimizin nəzərində hər bir ailənin xoşbəxtliyi üçün bu məsələlər haşiyəvi mövzular deyil, norma olmalıdır.

## Əhli-Beytin (ə) ailə həyatında ən ali yanaşması

Həzrət Əli (ə) və Xanım Fatimeyi-Zəhranın (s.ə) o nurani həyatının bünövrəsində məhz bu yanaşma dayanır. Əziz Peyğəmbərimizin (s) gözünün işığı, qəlbinin meyvəsi Xanım Fatimeyi-Zəhra (s.ə) ilə olan ünsiyyətinin, məhəbbətinin bünövrəsində bu dayanır. Odur ki, əziz Rəsulallah (s) buyurur: **"Fatimə məndəndir və mən də Fatimədənəm".** Yəni məsələ bir bioloji, ata və övlad məsələsi deyil. Məsələ vahid bir nur olmaq mövzusudur, Allaha bəndə olmaq məsələsidir. Necə ki, əziz Peyğəmbərimiz (s) Həzrət İmam Hüseyn (ə) üçün bu sözləri deyir, eynilə bunları Həzrət Xanım Fatimeyi-Zəhra (s.ə) üçün də buyurur.

Bu, bir həqiqətdir ki, Həzrət Əmirəlmöminin (ə) fəxr edir ki, aləmlərin ən üstünü olan Xanımın (s.ə) həyat yoldaşıdır. Həzrət Əli (ə) bununla iftixar edir. Çünki, Xanım Fatimeyi-Zəhra (s.ə) - kamil bir Allah bəndəsidir. Xanımın (s.ə) məqamı o qədər yüksəkdir ki, böyük əxlaq ustadları buyurur ki, **"Əgər Xanım Fatimeyi-Zəhra (s.ə) xanım olmasaydı, olmazdı".** Əgər Xanım Zəhra (s.ə) xanım olmasaydı, onun dünyaya gəlişi olmazdı. Çünki, əgər kişi olsaydı, mütləq idi ki, peyğəmbər olsun. Bir halda ki, Həzrət Muhəmməd (s) - axırıncı peyğəmbərdir, ondan sonra Qiyamətədək nəbi və rəsul olmayacaqdır.

Xanım Zəhranın (s.ə) məqamı fövqəl dərəcədə yüksəkdir. Bir var ki, bir şəxs ətrafındakılara işıq saçır. Xanım Fatimə (s.ə) öz varlığı ilə göydəkilərə də işıq salıb. Səma əhli Xanım Fatimeyi-Zəhranın (s.ə) nuraniyyətindən bəhrələnib. Bütün bunlar Xanımın (s.ə) kamil Allah bəndəsi olmasına görədir və Həzrət Əli (ə) da Xanımı (s.ə) dəyərləndirərkən, onun Allaha bəndəlik və itaətdə ən yaxşı yardımçı olmasına vurğu edir. Bütün ailələr gərək bu mövzudan özləri üçün dərslər götürmüş olsun.

## İnancımızın ailədə kişilərə tövsiyələri

Ötən bəhslərimizdə də qeyd etdiyimiz kimi, ailələrdə həm xanımların, həm də kişilərin məsuliyyətləri vardır. Bu bəhsimizdə də hər iki tərəfin üç məsuliyyətinə toxunarıq. Ailədə kişilərə mühüm tövsiyələrdən biri budur ki, kişilər gərək ailədə təkəbbürdən, kobudluq və qabalıqdan uzaq olsun. Mömin insanın ciddi əlamətlərindən biri budur ki, mömin ailə başçısı gərək ailədə təvazökar, yumşaq və mülayim olsun. Əziz İslam Peyğəmbəri (s) buyurur: **"Ümmətimin ən yaxşı kişiləri o kəslərdir ki, öz ailələrinə qarşı kobud və təkəbbürlü davranmırlar, onlarla mehribanlıq və nəvazişlə davranırlar və onları incitmirlər".** Deməli, ümmətin ən yaxşı mömin kişilərinin xüsusiyyətləri budur ki, həyat yoldaşları ilə kobud və təkəbbürlə davranmazlar, onlarla mülayim olarlar, mehriban olarlar, nəvazişlə davranarlar, onları incitməzlər.

İnancımızın ailədə kişilərlə bağlı digər bir mühüm tövsiyəsi əl qaldırmaqla bağlıdır. Dinimiz bu məsələni kökündən yanlış hesab edir və günahlardan sayılır. Peyğəmbərimiz (s) buyurur: **"Hər kim xanımın üzünə sillə vura, Allah Təala cəhənnəmin nəzarətçisinə əmr verər ki, cəhənnəm atəşindən onun üzünə yetmiş sillə vurula".** Yəni inancımız bu məsələlərdə hörmətə, mülayimliyə və mehribanlığa tövsiyə edir. Ailə münasibətləri mehribanlıq və məhəbbət üzərində olmalı, böhranlar, konfliktlər, problemlər olan zaman ağıl və məntiqlə davranılmalıdır.

İnancımızda kişiyə tövsiyə olunan üçüncü mühüm mövzu - öz sevgisini izhar etməkdir. İnancımız hansısa ənənələr, hansısa məhəlli, coğrafi adət-ənənələrlə davranmağı qəbul etmir. İnancımız İlahi məntiqlə davranmağı qəbul edir. Peyğəmbərimiz (s) buyurur: **"Kişinin xanımına "mən səni sevirəm" deməsi heç vaxt xanımının qəlbindən çıxmaz".** Təəssüflər olsun ki, müasir cahiliyyə dövrünün əlamətlərindən biri də budur ki, bu kimi məsələlər inancımızın birbaşa mətnində olsa da, hələ də haşiyəvi mövzular kimi qalmaqdadır.

## İnancımızın ailədə xanımlara tövsiyələri

Xanımlarla bağlı da dinimizin mühüm tövsiyələri var. Həzrət Peyğəmbər (s) buyurur: **"Kişinin qadın üzərində haqqı budur ki, xanım kişinin evindən muğayat ola, ərinə sevgi, məhəbbət və qayğı göstərə, onun qəzəbindən uzaq dura, hər nə ki, onun razılığına uyğundur - yerinə yetirə, onun əhd-peymanına vəfalı ola".** Bir tərəfdən inancımız mömin kişiyə tövsiyələrini çatdırır, digər tərəfdən də möminə xanıma tövsiyələri var. Xüsusən diqqət olunmalı məsələlərdən biri budur ki, xanımlar gərək dillərinə diqqət edələr, nə gəldi danışmayalar. Xüsusən həyat yoldaşları narahat və əsəbi olduqları vaxt gərək xanımlar nəvaziş və qayğılarını daha da artırsınlar.

Həzrət İmam Sadiq (ə) buyurur: **"Hər qadın ki, ərinə deyə "mən səndən heç vaxt bir xeyir görməmişəm"** - onun əməlləri aradan gedər". Əgər xanım bu formada ərinə qarşı qayıda, ona belə bir xitab edərsə - qıldığı namazlar, tutduğu oruclar, etdiyi bütün əməllər faydasız olar.

Dinimizdə buna qarşı xüsusi tənqid olan məsələlərdə biri də budur ki, xanımlar ailədə tərslik göstərələr. Həzrət Peyğəmbər (s) buyurur: **"Xanımlarınızın ən pisi - tərs olanlarıdır".** Tərslik - bir möminə üçün, müsəlman xanım üçün ən yolverilməz bir xüsusiyyətdir. Çünki, tərslik qədər dağıdıcı, bütün pozitiv ab-havanı dağıdan ikinci bir məsələ yoxdur.

Biz bunları xatırlamaqla, hər birimiz həyatımızda bu üfüqlərə, mayaklara diqqət etməliyik. Kişilər öz tərəfindən, xanımlar öz tərəfindən bu məsələlərdə diqqətli olmalıdır. Məntiq belə olmamalıdır ki, kişilər yaxşı olsalar, xanımlar da yaxşı olacaq və ya xanımlar yaxşı olanda, kişilər də yaxşı olacaq. Qəbirdə olanda bizə deyilməyəcək ki, o pis olduğu üçün sən də pis oldun. Deyiləcək ki, sən necə oldun?

Hər bir kəs fərd olaraq çalışmalıdır ki, Allah bəndəsi ola bilsin. Hər kəs düşünməlidir ki, Allahın razılığı nədədir, Allah məni necə görmək istəyir?

Allah Təala bizlərə ailəni rahatlıq və aramlıq yeri kimi təqdim edir. Heyifdir ki, bizlər o yeri dedi-qodularla, pis xasiyyətlərlə, pis davranışlarla dözülməz bir yerə çevirək.

**Allahım, ailələrdə bəyəndiyin ab-havanın hökmranlıq etməsini nəsib et!**

**Allahım, ailələrdə İlahi meyarların, Sənə bəndəliyin əsas meyar olmasını nəsib et!**

**Allahım, aqibətlərimizi xeyirli et! Amin!**

# YENİ MÜSAVAT

## Son səhifə

N 37 (6926) 16 fevral 2018




## 17 hoteldə istirahət etdi, heç birinə pul ödəmədi

Braziliyalı dələduz İsveçin paytaxtı Stokholmdakı 17 fərqli hoteldə doqquz ay boyunca 5 qəpik belə vermədən yaşayıb. Ən son olaraq qaldığı "Scandik Hotel"də may ayında həbs olunan braziliyalı çıxdığı məhkəmədə ağırlaşdırılmış dələduzluq suçuna görə 8 ay müddətinə həbs cəzasına məhkum olunub. Yaşadığı hotellərdəki xidmətlərdən yararlanaraq 17 hoteli ümumən 41 qəbz qarşılığında təxminən 260 min kron (26 min avri) məbləğində dələduzluq edən braziliyalı məhkəmə qərarına görə, dələduzluq etdiyi hotellərə bu miqdarı ödəmək zorundadır. Dələduzluq etdiyi bütün hotellərə eyni sayt vasitəsilə rezervasiya etdirən şəxs hotellərin girişində baqajının gecikəcəyini, bu səbəbdən də dərhal ödəmə edəməyəcəyini söyləyərək kredit kartı məlumatlarını qoyub. Braziliyalı qaldığı hotellərdən itəndən sonra kredit kartı məlumatları üzərindən edilən araşdırmalarda kartda lazımi qədər pul olmadığı üzə çıxıb. Məhkəməyə şahidlərin ifadələri, 28 yaşlı braziliyanın cib telefonundakı GPS pozisiyaları, wi-fi bağlantıları və facebook paylaşımları dəlil olaraq təqdim edilib.

# Türmədən qaçmaq istədi, tavanda gizləndi

Amerikanın Kolorado ştatının Kasl-Rok şəhərində məhkum türmədən qaçanda yaxalanıb. 34 yaşlı məhkum Kodi Kruker Duqlasdakı təcridxanada saxlanılırdı və 13 fevralda onun yoxluğu fərq edilib. Türmənin binasını tez əhatəyə alıblar, qaçağı tutmaq üçün axtarış köpəkləri işə cəlb edilib. Bir saat sonra Krukeri tapdılar. O, hələ türmə binasını tərk etməyə vaxt tapmamışdı, sadəcə, tavanda gizlənirdi. Onu dərhal gizləndiyi yerdən çıxararaq, tibbi baxışa, ordan da kamerasına göndəriblər. Hələ də qeyri-müəyyən qalıb ki, o, bu cür çətin yerdə necə gizlənməyə müvəffəq olub.




Kruker fevralın əvvəlində türməyə düşüb. Onu dövlət məmuruna təzyiq göstərməkdə, saxta sənədləşmədə və özünü başqası kimi təqdim etməkdə ittiham edirlər. Bundan başqa, o, kiçik mağaza oğurluqlarında və narkotik saxlamaqda da günahlandırılır. 2017-ci ildə Amerikanın Pensilvaniya ştatındakı Filadelfiya şəhərində məhkum türmədən qaçmaq istəsə də, zibil yeşiyində ilişmişdi.

# Milçək dişləməsinə görə yaranan 14 kiloluq şişi əməliyyatla götürdülər




Hindistanın Kreala ştatındakı Koçin şəhərində 46 yaşlı kişi milçək dişləməsindən sonra yaranan şişə görə əməliyyatdan keçib. Şişin çəkisi 14 kilo olub və kişinin yançağında yerləşirdi. Bu barədə "The Times of India" xəbər verib. Pasiyentin 16 yaşı olanda onu milçək dişləyib və milçək parazit daşıyıcısı olub. Bədənə düşən bu virus limfatik filyarioz yaradır. Bu isə elə xəstəlikdir ki, dəridə yayılır və ciddi şiş formasına çatır. 2016-cı ildən kişi yancağındakı bu şişə görə yataqdan qalxa bilmir. O, ancaq ayaqyoluna getmək üçün ayağa qalxır. Amma bu zaman da ona yardım lazım olur.

5 cərrahın və üç anesteziloqun iştirakı ilə 5 saat boyunca davam edən əməliyyatdan sonra pasientin çəkisi 25 kiloqram azalıb. Hazırda onun çəkisi 83 kilodur və uzun müddətdən bəri ilk dəfədir ki, kənar yardım almadan hərəkət edə bilir. Həkimlər ehtimal edirlər ki, 6-9 aydan sonra həyata keçiriləcək daha bir əməliyyatdan sonra kişi normal həyatına qayıda bilər.

"Hər hansı dəstək olmadan öz ayaqları üzərində dayana bilmək möhtəşəm bir hissdir. Mən çoxdan bəri qorxurdum ki, əgər infeksiya yayılsa, ayaqlarımı amputasiya etmək məcburiyyətində qalacam. Mənə həyatımı qaytardılar və indi səbirsizliklə işə gedəcəyim vaxtı gözləyirəm".

1 fevralda isə xəbər verilmişdi ki, Puerto-Rikoda bir qadının yumurtalıqlarından 34 kiloqram çəkisində şiş xaric edilib.




**QOÇ** - Təəssüf ki, ixtiyarınızda olan bu gün hansısa ciddi müvəffəqiyyətə nail olacağınız gözlənilmir. Ələlxüsus da saat 15-18 arası bəzi xoşagəlməzliklərlə baş-başa qala bilərsiniz. Daha çox neytral olun.

**BUĞA** - Bu təqvimi xoş ovqatla qarşılasanız, planlarınızın əksəriyyəti qaydasına düşməyə başlayacaq. İstirahətdən daha çox əlaqələri dərinləşdirin. Axşama doğru işlə bağlı təkliflərə laqeyd qalmayın.

**ƏKİZLƏR** - Planetlərin gərgin qarşıdurmasına təsadüf edən bu təqvimin sizə əhəmiyyəti böyük olacaq. Çoxsaylı işgüzar görüşlər, perspektivli və yeni əlaqələr istər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə sizə böyük səmərə verəcək.

**XƏRÇƏNG** - Yaxşı olar ki, əsas vaxtınızı istirahətdə keçirəsiniz. Əks təqdirdə, cəhdlərinizin boşa çıxması, uğursuz sövdələşmələr, səhhətlə bağlı narahatçılıq və s. kimi mənfi fəsadlar baş verə bilər. Bir az təcrid olunun.

**ŞİR** - Xırda mübahisələri nəzərə almasaq, bu tarix sizin üçün normal bir zaman kəsiyi olacaq. Ədalətsiz insanları görəndə, haqsızlığın şahidi olanda üsyankarlıq göstərməyin. Əksinə, təmkin nümayiş etdirməklə öz ideyalarınızı tədricən onların beyninə yeridin.

**QIZ** - Yolayrıcında qalmağınız yetər. Gələcəyinizi, taleyinizi düşünürsünüzsə, konkret addımlar atın. İnsanlarla umu-küsüləri bir kənara qoyun. İndi konfliktlərə girişməkdənsə, qarşılıqlı münasibətləri mülayimləşdirmək daha sərfəlidir.

**TƏRƏZİ** - Bu dəyişkən təqvimdən qorxmağınıza lüzum yoxdur. Çünki sizin kimi romantik şəxslərə bu ərəfədə heç bir zərər dəyməyəcək, üstəlik, aktivləşdiyiniz indiki dövrdə şanslarınız da artacaq.

**ƏQRƏB** - Təzadlı gündür. Proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətə səmt ala bilər. Bu səbəbdən də yaxşı bələd olmadığınız şəxslərlə işbirliyi yaratmaqdan, riskli pul sövdələşmələrində iştirak etməkdən vaz keçin.

**OXATAN** - Bütün vacib iş və planlarınızı günün ilk yarısında həyata keçirməyə çalışın. Çünki günün yalnız bu hissəsi ümumi işlərinizdə aktivlik mərhələsi olacaq. Ulduzlar daşınmaz əmlak alış-verişindən uzaq olmağınızı məsləhət görür.

**OĞLAQ** - Göy qübbəsi yuxusuzluğunuzdan, həmçinin iştahasızlığınızdan şikayətlənir. Bunun qarşısını almaq üçün bütün qüvvənizi səfərbər etməlisiniz. Əgər hansısa uğursuzluqla rastlaşırsınızsa, bunun səbəbini başqalarında deyil, özünüzdə axtarın.

**SUTÖKƏN** - Bürcünüzün hakimiyyətinin sonuna yaxınlaşdığı bu ərəfədə mübahisə və konfliktlərdən, eləcə də yeni işlərə başlamaqdan vaz keçməlisiniz. Daha çox mənəvi rahatlığınızı təmin edin.

**BALIQLAR** - Saat 14-ə qədər ümumi işlərinizdə passivlik hökm sürəcək. Həmin müddətdə riskli işlərdən uzaq olmalı, yeni müqavilə və təkliflərdən boyun qaçırmalı, eləcə də səhhətinizlə məşğul olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Öz ad gününə "06" alan amerikan diplomat




Amerikanın Estoniyadakı səfirliyində çalışan amerikan diplomat özünə 1987-ci il istehsalı olan VAZ-2106 alıb. Bu minvalla Brayan Timm Brok adlı diplomat özünün 30 yaşına hədiyyə edib. Gənc adamın sözlərinə görə, ilk maşınını alarkən nəsə qeyri-adi bir seçim etmək istəyib. "Mən həmişə bilirdim ki, mənə dəbli maşın lazımdır. Düşünürəm ki, hər şeyi düz etmişəm".

O qeyd edib ki, artıq mexaniki motorlu maşını idarə etməyi öyrənib. Bundan başqa, avtomobil üçün qış rejimi də yaradıb. VAZ-2016 1976-cı ildən 2006-cı ilə qədər Volj avtomobil zavodunda istehsal edilib. Bu, ən populyar sovet maşınlarından biridir. Bu günə qədər ondan 4 milyon ədəd istehsal edilib.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100